Əli Aslanoğlu

SEÇİLMİŞ QƏZƏLLƏR



2007
1118

ШЗ
А 93

Əli Aslanoğlu

80963

SEÇİLMİŞ QƏZƏLLƏR

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

BAKI – 2007

82568

Ш6(2=Аз) + Ш5(2=Аз)

Redaktoru:

Filologiya elmləri doktoru
Teymur Kərimli

Əli Aslanoğlu (Xankişiyev)

SEÇİLMİŞ QƏZƏLLƏR

«Nurlan» nəşriyyatı, Bakı – 2007, səh. 159

Sürətlə qloballaşan dünyamızda klassik ədəbi ənənələrin, o cümlədən divan ədəbiyyatının yaşadılması və gələcək nəsillərə çatdırılması vacib əhəmiyyət kəsb edir. Bu baxımdan şairin oxuculara təqdim olunan "Seçilmiş qəzəllər" kitabı çağdaş ədəbiyyatımızın uğuru kimi dəyərləndirilə bilər. Kitabdakı qəzəllər fəlsəfi poetik tutumu, klassik formanın müasir dil və üslub baxımından işlənməsinin orijinallığı ilə maraq doğurur.

A $\frac{4702010000 - 239}{N098 - 2007}$ ***Qrifli nəşr***

Əli Aslanoğlu (Xankişiyev Əli Aslan oğlu) 1949-cu ildə Ağcabədi rayonunun Bayat kəndində anadan olmuşdur. 1971-ci ildə Azərbaycan Politexnik İnstitutunu bitirdikdən sonra uzun müddət istehsalatda müxtəlif məsul və rəhbər vəzifələrdə işləməklə bərabər, eyni zamanda elmi və ədəbi-bədii yaradıcılıqla da məşğul olur.

Çoxtərəfli nəzəri-analitik biliyi ilə seçilən şair-qəzəlxan, publisist Əli Aslanoğlu "Minillik düşüncələri" şeirlər toplusunun, "Bilik qapısının açarları", "Prezident Heydər Əliyev və onun siyasət məktəbi", "Zirvəyə gedən yol", "Qəzəllər dünyası" kitablarının, eləcə də Dövlət Muğam Teatrı tərəfindən onun qəzəlləri əsasında səhnələşdirilib 2003-cü ildə tamaşaya qoyulmuş "Məhəbbət hekayəti" adlı muğam-tamaşanın libretto müəllifidir. Moskva və Bakı mətbuatında onlarla elmi-texniki, fəlsəfi və publisist məqalələr dərc etdirən Əli Aslanoğlu həm də muğam tədqiqatçısıdır. Onun 2004-cü ildə çapdan çıxmış "Muğam poetikası və idrak" monoqrafiyası Azərbaycan muğamlarının fəlsəfi mahiyyətinin araşdırılmasında yeni metodların, orijinal yanaşma üsullarının tətbiqi baxımından mütəxəssislərin diqqətini cəlb edib və bu sahədə ilk fundamental nəzəri tədqiqat əsəri kimi dəyərləndirilib.

© *Əli Aslanoğlu, 2007*

MƏHƏBBƏT YÜKÜ İLƏ POEZİYA ZİRVƏSİNƏ

Əli Aslanoğlu ilk şeirlərini hələ erkən gənclik illərində yazsa da, onun ədəbiyyata gəlişi bir qədər gec baş vermişdir. Bunun da səbəbi ondan ibarətdir ki, Əli olduqca istedadlı, hər tərəfli geniş məfkurə tutumuna malik bir mühəndisdir və uzun illər istehsalatda məsul vəzifələrdə çalışmışdır. Lakin cidanı çuvalda gizlətmək olmur! Onun daxilindəki ədəbi-bədii yaradıcılıq ehtirası, poetik hikkə haçansa bu çuvalı yırtıb çıxmalı idi və çıxdı da...

Nəinki bizim ölkədə, eləcə də bütün dünyada barmaqla sayıla bilən adamlar olub ki, onlar elm və ədəbiyyatın bir çox sahələri, istiqamətləri üzrə qələm işlədə bilsin, tədqiqatlar aparsın, həm heca, həm də əruz vəznində eyni dərəcədə sanballı əsərlər yazsın, eləcə də sərbəst şeirin gözəl nümunələrini yarada bilsin. Bu gün fəxarət hissi ilə deyə bilərik ki, belə istedadlı insanlardan biri də bizim qələm dostumuz Əli Aslanoğludur. Bu adamın yaradıcılıq spektrinə nəzər saldıqda heyrətlənməyə bilmirsən. Astrofizikadan tutmuş, riyazi analizə, istehsalatın təşkilindən təhsil problemlərinə, musiqidən fəlsəfəyə, bədii və siyasi publisistikadan jurnalistikaya, nəsrdən dramaturgiyaya və nəhayət qəzəliyyata qədər bir yol keçib onun qələmi. Və indi də sürətlə irəliləməkdədir.

Qəlbində məhəbbət yükü, çiynində ağrılı-acılı dövrümüzün ağır vətəndaşlıq mükəlləfiyyəti ilə dolu istedad xurcunu daşıyan bu təvazökar, zahirən sakit, daxilən fırtınalı insan hara və necə gedir görəsən? Bu suala müəyyən qədər cavab

tapmaq üçün həmin xurcunun bir cibini-qəzəliyyat tərəfini araşdırmağa çalışacağıq. Əlbəttə, bu yazıda çap məhdudluğu səbəbindən tam təfərrüata varmaq mümkün olmasa da, hər halda müəyyən fikir söyləmək üçün bəzi aspektlərə toxunmalıyıq.

Əli Aslanoğlunun qəzəlləri həm forma və məzmun, həm də dil və üslub cəhətdən özünəməxsusluğu ilə səciyyələnir. Klassik ədəbiyyatı dərindən bilməsi, şərq dillərinə bələdçiliyi və əruzun qayda-qanunlarına vaqifliyi onun qəzəllərinin məna dərinliyində və məfkurə tutumunda bariz şəkildə özünü göstərir. M.Füzuli, İ.Nəsimi, S.Ə.Şirvani kimi klassik dayaqlara söykənib qəzəl icad etmək həm asandır, həm də çətin. Ona görə asandır ki, məktəb var və bu məktəbdən faydalanmaq imkanı mövcuddur. Ona görə çətindir ki, qəzəl yazanda gərək elə yaza biləsən ki, həmin korifeylərin fonunda nəsə bir şey gözə dəysin. Elə bu səbəbdən də indi bizdə qəzəl yazanlar olduqca azdır və bir çoxları bu sahəyə qələm uzatmağa cəsarət etmir. Ancaq Ə.Aslanoğlunda bu cəsarət var və deməliyəm ki, o, qəzəl janrında boş yerə qələm işlətməyib.

Qəzəl ədəbiyyatı tarixində Füzuli dərin bədii-lirik pafosu, Nəsimi üsyankar təbiəti, Vahid vəsf və mədhiyyə üslubu ilə tanınırsa, Əli Aslanoğlu bədii-fəlsəfi düşüncə tərzi ilə meydana çıxır və bu zaman yüksək lirizmi də əldən buraxmır.

Ağlını eşq almışın dünyada təqsiri nədir?
Şərbəti-eşqin görən təbdilə iksiri nədir?!

...Mən ki, yarəb, müslüməm, eşqimdə müşrik deyiləm,
Bəs cəhənnəm-sağərin qarşımda təsviri nədir?!

Göründüyü kimi, məhəbbətin insanda yaratdığı duyğuların, onun hətta əqli düşüncəni üstələməsinin hələ indiyəcən tam öyrənilməmiş fəlsəfi-bioloji köklərinin nədən ibarət olması problem kimi ortaya qoyulur. Aşiqin çəkdiyi hicran iztirabının cəhənnəm odundan betər olduğu dəyərli poetik ifadə ilə verilir. Ə.Aslanoğlu qəzəllərində məhəbbət anlayışı fəlsəfi mənada demək olar ki, substansiya səviyyəsinə qədər inkişaf etdirilir, hər şeyin əzəli və əbədi məzmunu, varlıq forması kimi ümumiləşdirilir. Saf məhəbbət duyğusu hər bir əqidədən yüksəkdə dayanır:

Məbədi –eşq daxili məbudu bilməkdə nə var!
Can müdam səcdədəsə, məscidə gəlməkdə nə var?!

Elə həmin qəzəlin bir başqa beytində məhəbbət yolunun çətinliyi, vəsl və hicran arasındakı nisbət göstərilməklə nəzərə çatdırılır:

Sadədir, ey baş yoran, təhlildə eşqin hesabı,
Bir vüsal niyyətini min dərdə bölməkdə nə var!

Qeyd etməliyik ki, məhəbbətin idrakdan, o cümlədən, məsləkdən də yuxarıda dayanması fikri klassik ədəbiyyatda çox işıqlandırılmışdır. Şərq poeziyası tarixində 40-dan artıq «Leyli və Məcnun» mövzusunun işlənməsi və burada aşiqin məhz cünun kimi təsvir olunması şərq ədəbiyyatında məhəbbət anlayışının necə yüksəkdə tutulduğuna parlaq misal-

dır. Lakin bu ideyanın müasir ədəbiyyatda yeni çalarlarla, elmi-fəlsəfi əsaslarla işlənməsi, yeni bədii fikir, tutarlı poetik düşüncə ilə yüklənməsi olduqca vacib və təqdirə layiq işdir. Əli belə bir ağır yükün altına girir və onu özünəməxsus bacarıqla söz zirvəsinə daşıya bilir.

Deyirlər əhli-cənnət zöhd ilə zahid olan kəsdir,
Ki, ol, məhşər günü divanidən azad, müraxxəsdir.

Cəhənnəm qövmünə yaz ismimi, zahid, mənim artıq,
Vüsal zöhdüylə cənnətsükun olduq, daha bəsdir!

Bu qəzəlin sonrakı beytlərində şair aşiqin qibləsinin yalnız eşq olduğunu göstərir, onun taleyinin məhəbbət, hicran və cəfa üçbucağına yazıldığını vurğulayır:

Məni cəlb eyləmə mehrabına, ey mürşidi –kamil,
Sənə beytülmüəzzəmin, mənə eşqim müqəddəsdir.

Nə tərsim eyləmiş gör, taleyim ol xaliqi-həndəs,
Cəfam, eşqim, yanar canım bərabəryan müsəlləsdir!

Əlinin poeziyasında bədii təsvir və bədii ifadə vasitələrindən çox geniş və ustalıqla istifadə olunması onun şeirlərinin məzmununu dərinləşdirir, dilə yatımlığını artırır, qəzələ axıcılıq və xəlqilik gətirir.

Bəhri-eşqin təkinə gəncinə sövq etdi məni,
Ayna tut, zəri-ziba, lölövü –dürdanəyə bax!

...Bəzmi-eşq divanına üz tutma, ey əhli-vəfa,
Hökm edən sultanı gör, məhbusi-zindanəyə bax!

Buradakı məcazlar şairin ədəbi-bədii qüdrətini ortaya qoyan, söz materialından qəzəldə böyük ustalıqla istifadə etmək bacarığını isbata yetirən nümunə kimi dəyərləndirilə bilər. Onu da bildirməliyik ki, Əli Aslanoğlu qəzəldə hətta bir çox klassiklərin yol verdiyi təfilə sürüşdürməsinə yol vermir. Hər təfilənin demək olar ki, ayrı-ayrı sərbəst bölümlərdən ibarət olması qəzəlin şeiriyyət ritmini yüngülləşdirir, əruzla oxunuşunu sadələşdirir. Elə bu səbəbdən də onun qəzəlləri muğamlara yatımlıdır və xanəndələr tərəfindən sevilə-sevilə oxunur.

Əli novator şairdir. O, baş qafiyəli və rədif qafiyəli qəzəllər yazmış, haqqüçünə desək, uğurlu nəticəyə nail ola bilmişdir:

Çıxdı əldən, ey təbib, ol ümidvar olduğum,
Yıxdı canım dərd ilə bu giriftar olduğum.

...Çoxdu bərbad səhra ki, olmuşam qul dərdə mən,
Yoxdu bir beytül-sürur hökmü-sərdar olduğum!

Burada qəzəlin bütün beytlərinin ilk sözləri həmqafiyədir. Bəlkə də bu genetik yaddaşdan irəli gəlir. Çünki antik türk (Azərbaycan) şeirində qafiyə sözün əvvəlində olmuşdur. Bununla belə əruzu gözləməklə qəzəldə onun məna və məzmununa xələl gətirmədən baş qafiyələr işlədilməsi ədəbiyyatımıza xidmət kimi dəyərləndirilməlidir. Bunun kimi də:

Ey fələk, bir bəxti kəm mən kimi, xilqətdə hanı?
Taledən bir zərrəcən varsa pay qismətdə, hanı?

Çərxi-dövran sitəmi qəsd ilə yandırdı canı,
Bəndəyə gəlmiş cəza bir belə şiddətdə, hanı?!

qəzəlində (şairin 20-dən artıq belə qəzəli var) son sözlərin total formada qafiyələnməsi şeirin axıcılığını artırmaqla bərabər, həm də müəllifin geniş söz ehtiyatına malik olduğundan xəbər verir.

Bir cəhətə də diqqət yetirməyi lazım bilirik. Əli ərəb dilini mükəmməl bilsə də, onun qəzəllərində ərəb və fars sözləri olduqca qənaətlə, yalnız vacib yerində işlədilir. Burada klassik qəzəl dili ilə çağdaş ədəbi dilimiz sanki bir körpü ilə birləşir, səlis və rəvan keçid alınır. Bütün bunlar şairin-qəzəlxanın ədəbiyyat xəzinəmizə töhfəsidir.

Əli Aslanoğlunun divan ədəbiyyatı sahəsindəki yaradıcılığı yəqin ki, ədəbiyyatşünaslar tərəfindən geniş təhlilə uğradılacaqdır. Bu, hər şeydən əvvəl ədəbiyyatımızın sabahı üçün lazımdır. Eyni zamanda, klassik şeirimizin unudulmaması, müasir gənclərimizin ruhundan əsl poeziya ab-havasının silinməməsi üçün əhəmiyyətlidir.

Şairin oxuculara təqdim olunan «Seçilmiş qəzəllər» kitabı, onun poeziya zirvəsinə doğru atdığı daha bir uğurlu addımdır. Və heç şübhəsiz ki, bu kitab söz-sənət xiridarlarının, xanəndələrin dönə-dönə müraciət etdiyi bir vəsait olacaqdır.

Məhərrəm Qasımlı
Filologiya elmləri
doktoru, professor.

MÜƏLLIFDƏN BIR NEÇƏ SÖZ

Adamlar daxili düşüncələrini və hisslərini gizlədirlər. Başqaları ilə ünsiyyət zamanı üzə çıxan xarakter və xüsusiyyətlər yalnız planlaşdırılmış şəkildə görüntüyə gətirilən cəhətlərdir. Həmin cəhətlər ən yaxşı halda həqiqətin 60-70%-indən artıq olmur. Dil ünsiyyəti duyğunu xeyli məhdudlaşdırır. Əgər insanlar lal duyğu ilə ünsiyyətdə bulunsaydılar onlar heç nəyi gizlədə bilməzdilər, xarakter tam açılmış olardı.

Dil sivilizasiyaya xidmət etdiyi qədər də ədalətin əleyhinə iş görmüşdür- o, həqiqətin pərdələnməsində mühüm rol oynamışdır və getdikcə daha artıq rol oynayır.

Bu sətirləri oxuyanlardan bəziləri düşünəcək ki, əcaba, bu fəlsəfənin qəzəllər kitabına nə dəxli var? Bunu nəzərə alıb bir qədər mətləbə yaxın danışmaq istəyirəm.

Məncə şairlər Tanrı tərəfindən seçilmiş insanlardır və onların düşüncə mövqeyi dəlilik ilə ağıllılıq arasında elə yerləşdirilib ki, lazım gəldikdə hər iki istiqamətdə istifadə etmək mümkün olsun. Şairlərlə peyğəmbərlər arasındakı fərq ondan ibarətdir ki, şairlər dünyanın dərd və müşgüllərinə,sevinc və kədər anlarına, məhəbbət bə hicran məqamlarına arayış verir, söz və ritm vaitəsilə izahat hazırlayır, peyğəmbərlər isə bu arayış əsasında sistem qurur, əqidə yaradır, istiqbalı müəyyən edirlər. (Deyəsən heç bunun da kitaba o qədər aidiyyatı olmadı. Darıxmayın, söz sözü gətirər, axır nəsə ağlabatan bir şey tapıb yazacağıq).

Hərdən mənə elə gəlir ki, bu dünyanın haradasa hələ gizli qalan bir kəlmə sözə, bir cümləyə böyük ehtiyacı var və mən o

sözü, o cümləni tapıb yazmalıyam. Hər yazdığım əsəri qurtardıqdan sonra həmin o ali mərtəbədə təsəvvür etdiyim kəlməni tapıb yaza bilmədiyimə görə təəssüf hissi keçirirəm. Bilmirəm başqa şairlərdə də belə olur, yoxsa yox, mənim qəlbimdə mücərrəd bir duyğunun əlçatmaz zirvəsi əfsanələşib. O zirvəyə nə qədər can atsam da yetişə bilmirəm. Ola bilsin ki, bu, şairliyin hərəkətverici qüvvəsi, yaxud ilham deyilən şeydir. Hər halda bu naməlum varlıq (əslində yoxluq) məni rahat buraxmır. Bəlkə elə buna görədir ki, sevə-sevə yazdığım bir şeiri bir neçə vaxtdan sonra götürüb oxuyanda mənə elə gəlir ki, çox mənasız və axmaq bir şey yazmışam. Beləliklə də mənalı bildiyimin mənasız görüntüsündən təzəsini yazmaq ehtirası doğur. Məncə elə budur şairin şairlik tsikli, çünki, şair heç də həmişə şairlik vəziyyətində olmur.

Bəzən məna daxilindən çıxan mənasızlıq məni məndən alıb mənsizliyə aparır, getmək istəməsəm də aparır.., aparır... Geri qayıtmağın isə bircə yolu var- getdiyinin əksi. Yəni mənasızlıqdan mənanı tapıb üzə çıxarmaq, əgər tapa bilsən... Mənasız qayıdışın nə mənası?..

O ki qaldı sizə təqdim edilən bu qəzəllər kitabına, o da mücərrəd dünyamızın keşməkeşli yollarındakı məna ilə mənasızlıq arasında söz və düşüncənin vəhdətindən kiçik bir nəzm evi qurmaq cədindən başqa bir şey deyildir. Bizdən sonrakı yolçular bu evdən zərrə qədər bəhrələnə bilsələr, insanlar üçün nəsə bir iş görə bildiyimizdən təsəlli tapardıq.

Haqqınızı halal edin, ey məndən əvvəl köçüb gedənlər! Allah sizə qəni-qəni rəhmət eləsin!

QƏSIDƏ

Bəzmi-əşar içrə sən gəl sanma asandı qəzəl,
Nəğməkar çox şairə dünyada ad-sandı qəzəl.

Aşiqin eşq aləmin söylənməsə kimdi bilən ?
Binəva aşiqlərə həm böylə imkandı qəzəl.

Al kitab, sən qıl nəzər hərdən Füzuli sözünə,
Gör ki nə qan ağlayan daxildə üsyandı qəzəl!

Çox lirik duyğuları çatdırdı isbatı ilə,
Əhli-eşq bəzmində həm alimi-ürfandı qəzəl.

Çəkdiyin möhnətləri bölməyə həmdəm nə lüzum,
Qəmkeşə həmdəm olan bir qəlbi nalandı qəzəl!

Haq sözün isbatına Nəsimi sərpa soyulub,
Haqqı inkar etməyən ol qana qəltandı qəzəl!

Gər muğam məclisləri tərpətsə nisgillərini,
Dinləyən agah olub, anlar nə əfqandı qəzəl!

Hər sözü, hər kəlməsi dartır elin qəm yükünü,
Yüklənib nisgil çəkən səhradə karvandı qəzəl!

Axtarır vəslin yolun aşiqlə həmdərd oluban,
Dildə nalən olsa da qəlbində mehmandı qəzəl!

Bilmə kim, yoxdur canı, beş kəlmə sözdür eləcə,
Sal nəzər, diqqət elə, bir dərdli insandı qəzəl!

Qəm yesə qəlbin için, dərmanı yoxdursa əgər,
Yol tapıb məlhəm qoyan şəfqətli Loğmandı qəzəl.

Vahidin yazdıqları hər yerdə əzbər oxunur,
Musiqi mülkündə bir təxti-Süleymandı qəzəl!

Həkk edir beytə özün şair də əfkarı ilə,
Bəllidir, şair üçün təsdiqi-ünvandı qəzəl!

Elmisiz, fəlsəfəsiz, iqbalı puçdur yazanın,
Çox dərin anlam ilə söhbətli meydandı qəzəl!

Öyrənib, təhlil edib Seyyidi-Ə'zim əsərin,
Anladım dünya imiş, nəinki Şirvandı qəzəl!

Yön verib, islah edib, onlarla təsnif yetirib,
Gər desən valid ona, nisbətdə İmrandı qəzəl.

Çox qəzəlxan ad yazıb tarixdə ölməzliyə, çün,
İçməyə nail olub, həm abi-heyvandı qəzəl!

Hökmü var, hikməti var, fərmanı daşdan da keçir,
Tar vəzir, kaman vəkil, məclisdə sultandı qəzəl!

Söz ilən çıxsan əgər çöllərdə ceyran ovuna,
Qüvvədə yox bənzəri, bir şiri-aslandı qəzəl!

Şairin söz söyləmək imkanı çoxdur, bilirik,
Hökmü-xaqanlar ara bir özgə fərmandı qəzəl!

El sevən şair odur, nəzmində millət yaşasın,
El, oba əzbər bilər, gər dildə səhmandı qəzəl!

Naşılar nəzmində kim, hərdən ucuz söz üyünür,
Onlara sən'ət deyil, çax-çax dəyirmandı qəzəl!

Sən əgər mürşid isən vəsf eylə, nazim, qəzəli,
Tədrisi-məsləк nədir, təlimi-imandı qəzəl!

Yandırıb dildən səni lal etsə eşqin alovu,
Halətin bildirməyə ən yaxşı elandı qəzəl!

Çuğlasa möhnət, kədər, gər olmasa özgə əlac,
Qəm torun cırmaq üçün həm çırpınan candı qəzəl!

Dərdimin izharıçün cəhd eylədim əldə qələm,
Yazmışam, artırmışam, ta indi divandı qəzəl.

Ol şəhidlər qəbrinin gülləri qandan qızarıb,
Yurdumun səlnaməsi, tarix yazan qandı qəzəl!

Ayrılıq səddin aşıb eldən elə ün yetirir,
Şəhriyar, Heydərbaba,Təbrizlə Zəncandı qəzəl!

Günbəgün dərd yazmışam, əndazə sığmır ömürə,
Nəzmi-ürfan olsa da çox dərdə heyrandı qəzəl!

Dərya tək dərindədir daxildə mənası sözün,
Şerimiz dərya isə, mirvari, mərcandı qəzəl.

Yarə çox yazdımsa da mən görmədim bircə cavab,
Qalmayıb artıq ümid, sonuncu gümandı qəzəl!

Qoy Əli yazsın qəzəl, çün özgə imkanı hanı?
Xalqa şerindən onun bir sadə ehsandı qəzəl.

* * *

Ey könül boş qalmısan, gəncinəlik getdi daha,
Eşqdən qalmış xəyal, söz söhbətin bitdi daha.

Nazını sən gözləmə bir də o nazəndələrin,
Nə qədər lazım idi, onlar sənə etdi daha!

Canımı ehsan kimi məhrulərə pay elədin,
Varlığım oldu talan, bu nə səxavətdi daha ?!

Çox da kim çırpır ürək ardınca mahparələrin,
Söz açıb bildirmə heç, artıq qəbahətdi daha!

Sən məhəbbət köhlənin çapdın o illər uzunu,
Pay-piyada indi bu, hansı səyahətdi daha ?!

Bəzmi-eşqin xiffətin bu yaşda çəkməkdə nə sud?
Ya Əli, anlat ona, dövran gəlib yetdi daha.

* * *

İstərəm ol yarı kim, əhdində çox düzgün ola,
Can dözər yar cövrünə, edam belə, yüz gün ola!

Ağ buxaq, büllur bədən, qamət gərək şümşad kimi,
Gözləri qəndil çıraq, tər sinəsi güzgün ola.

Qəlb evin ol doldura nazlar ilə başdan başa,
Gah gülə, gahdan küsə, hərdən baxış süzgün ola.

Böylə bir nazəndəni qismət verə bəxtin sənə,
Hansı nadan əl çəkər, lap can belə üzgün ola!

Aşiqə vəslin yolu, əlbəttə kim, asan deyil,
Yox lüzum bədbin düşüb, ol, taledən küskün ola.

Ey Əli, biixtiyar düşmə gözəllər ardına,
Taleyin yazsın gərək, alnında bir cizgin ola!..

80963

* * *

İstərəm haqqım kəsən hər bir zaman qəmxar ola!
İstərəm evlər yıxan həm böylə də tarmar ola!

İstərəm dil yandıran qalsın susuz, gül tək sola,
İstərəm tapsın mərəz həm bunca kim, zinhar ola!

İstərəm ki, saxta iş dünyada faş, həm car ola,
İstərəm aləm bilə, hər nanəcib aşkar ola!

İstərəm zəhr eyləyən dövranımı halsız qala!
İstərəm çalsın ilan, ya gürzə, ya şahmar ola!

İstərəm yollar kəsən həsrət qala hər bir yola,
İstərəm qanqal tikan əynində dar paltar ola!

İstərəm ömrüm mənim zindan edən həm xar ola,
İstərəm gen dünyada hər qisməti əzrar ola!

İstərəm ruzim alan aclıq çəkib görsün bəla,
İstərəm süfrəsi boş, hər bir anı ah-zar ola!

İstərəm ki, ya Əli, xəlqim bütöv həmkar ola,
İstərəm xəlqin evi başdan-başa bol var ola!

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

***

Boşdu və'zin, vaiza, etməz nüfuz vicdanıma,
Xoşdu ol naleyyi-tar, manəndi var əfqanıma.

Me'marın vaqif deyil bərpasına bərbadımın,
Nə tikir tiksin özü, əl vurmasın zindanıma.

Məndə bir can nəzri var, Əzrayilə yetmir əlim,
Ver ona isnad məni, göndər mənim ünvanıma.

Eşq evin mənzil edib yer vermişəm hər müşkülə,
Dərdimə dərd artıran heyrətdədir səhmanıma.

Daldada qeybət qılan əğyaridə varsa hünər,
Qoy keçib məhşər odun gəlsin mənim öz yanıma.

Bir sitəmkar dilbərin zülmündəyəm mən də, Əli,
Nə edir inkar məni, nə rəhmi var giryanıma.

* * *

Qandığımdan hər zaman borcum olub qanmazlara,
Varlığım qurban gedib qəlbdən, könüldən azlara.

Daş ürək nakəsləri mən boş yerə tutdum oda,
Atəşim sərf eylədim yaş çırpı tək yanmazlara.

Sidqi–dildən əl tutub çox insana verdim kömək,
Diqqətim cəlb eylədim bir an məni anmazlara.

Çıxdı əldən kəndiri vacib gərək imkanların,
Düşdü fürsət bir daha millət adam sanmazlara.

Saxlamaq imkanıçün vermiş fələk var-dövləti
Nə əriməz istidən, nə şaxtadan donmazlara!

Ya Əli, göstər mənə dünyadə sən haqqın yolun,
Kim, onun çıxsın sonu insaf-iman danmazlara!

* * *

Hər sevən aşiq deyil eşqində təkmil olmasa,
Hər cünun Məcnun deyil eşq üzrə təhlil olmasa.

Dərdi-hicran zillətin müşgüldü izhar eyləmək,
Çox çətin anlar nigar söhbətdə təfsil olmasa.

Daş ürək nazəndədir kuyində bərbad olduğum,
Yox ümid etsin əlac qəlbində təbdil olmasa.

Nur saçır ətrafına canlar alan gül çöhrəsi,
Ol işıq bəsdir mənə, gər evdə qəndil olmasa!

Eylə, Yarəb, bir səbəb kim, halətim bilsin o yar,
Görmürəm bir özgə yol, iş böylə təşkil olmasa!

Gər yubansan, ey təbib, kar eyləməz dərmanların,
Çün, sağalmaz bir ürək illacı təcil olmasa.

Ayrılıq möhnətinin mümkünmü tapmaq çarəsin,
Getdiyin vəslin yolu tabınca mənzil olmasa?!

Ey Əli, dərs aldığım qəmzadələr ustadıdır,
Yox yerim qəmxanədə, gər məndə təhsil olmasa!

* * *

Məndə bu, boş cismidir, can adlı sərvət yoxdu ta,
Can evim alt-üst olub, bir nöqtə xəlvət yoxdu ta.

Dərd gözümdən canımı giryanla xaric eyləyib,
Can alan Əzrayilə üstümdə zəhmət yoxdu ta!

Varlığımdan məhrumam nakam məhəbbət eşqinə,
Yoxluğum təsdiqdi kim, barəmdə söhbət yoxdu ta!

Qəlbi buz bir dilbərin hicranı könlüm yandırıb,
Min gözəl gəlsin belə, bir meyli-şəhvət yoxdu ta.

Saqi, sən insafə gəl, doldurma qanım badəyə,
Getdilər xunxarələr, ol eyşi-işrət yoxdu ta!

Qəbr evin tutdum səfər, tarix yarat bundan, Əli,
Məndə bu yoldan savay bir özgə hicrət yoxdu ta!

* * *

İstedadlı xanəndə, muğ müəllimi Qəzənfər Abbas

Ləhni–Davuddu muğam, ustad olan gər oxuya!
Hər qəzəl, hər bir sözü bəhrində əzbər oxuya!

Bunlara nisbət hanı, gəzsən bütün yer üzünü,
Bu ulu dəsgahları səsdən hünərvər oxuya!

Həm muğam tərbiyyədir – insafı təlqin eliyir,
O1 müqəddəs nəğməni islamipərvər oxuya!

Bəlkə də ol möcüzü xəlqimə göylər yetirib,
Var güman bizlər üçün ulduz, Ay, Ülkər oxuya!

Könlünü məftun edib qəlbində hakim kəsilər,
Tar ilə gər baş-başa nazəndə dilbər oxuya!

Bu hünər meydanına gər gəldi xanəndə, gərək,
Diqqətin cəm eyləyib başdan səfərbər oxuya.

Nola kim, hərdən, Əli, birlikdə məclis qurula,
Hər yerin öz ustası, bizdən Qəzənfər oxuya!

* * *

Məqsədin məhvimdisə al canımı, ey afitab!
Məndə qat-qat yanmağa yoxdur daha taqətü-tab!

Bir ümid kürsüsüdür dar altı məsnəd etdiyim,
Yıx onu, mənzərə bax, kimdir o boynunda tənab?!

Kühl ilə məstan olan nadanlara meyl etmə sən,
Eyni bir nisbətdədir onlarda eşq iylə şərab.

Gündə «divanə» deyib incitmə aciz bəndəni,
Mən, tutaq, Məcnun olum, anlat hanı Leylayə bab?!

Aşiqə işgəncəni məqbul tutan salik deyil,
Dadə yet, pərvərdigar, ol kafərə göndər kitab.

Ey Əli, çox dilbəri sən də vəfadar yazmısan,
Tək birin gəl indi tap, göstər, ey hörmətli cənab!

* * *

Qurulsun məclisi-üşşaqə xoş ovqat olan yerdə,
Buyursun məclisə yar, can ona sovqat olan yerdə!

Əduya etməzəm diqqət, deyildir mənsəbə caiz,
Mənə neylər müxalif mərtəbəm onqat olan yerdə.

Təsadüf həmmükalim olmaram nadanlara bir dəm,
Kəlam qiymətlidir məntiq ilə isbat olan yerdə.

Niyə məhv oldu Şeyx Sənan, səbəb aşkardı, ey mürşid,
Nicat gözlərmisən abid dönüb abbat olan yerdə?

Fəraqi-vəsl ilə əflak, Əli, min cövr edir etsin,
Məramım şadimandır hətta qəm ifrat olan yerdə.

* * *

Gərdişi–əflakədən meydan ki əğyarə qalıb,
Bizlərin son ümmidi yardakı ilqarə qalıb.

Bəxti kəm aşiqlərin çöhrəsi qəmdən sozalıb,
Üzlərindən bəllidir, qəlbində min yarə qalıb!

Eşqimin möhnətləri canımla bahəm qocalıb,
Nə bəyaz gün görmüşəm, nə başda bir qarə qalıb!

Ol mələk kim, sinəmə çeşmiylə xəncəri çalıb,
Tən yarı yoxdur ürək, ondan daha parə qalıb!

Təlimi–vəhdəti–can Məcnunu səhraya salıb,
Ol səbəb tapmır nicat, illərdi biçarə qalıb!

Yazmışam hər dərdimi, yar cümlə izharı alıb,
Söz daha yoxdur yazaq, iş indi təkrarə qalıb.

Yorma baş sən, ey Əli, dərman üçün fikrə dalıb,
Hicranın tək çarəsi bir eşqi inkarə qalıb!

* * *

Jalə yox, göz yaşıdır yarpaqları etmiş büləd,
Gör hesabın aləmin, qəmdən ayıl, ey dərdiməd!

Leyli-hicran kəndiri boğmaqdasa gül qönçəsin,
Neyləsin zillət çəkən, gər boynunu kəsmiş kəməd?

Didə giryan, arizi qan, dərdi pünhan olmasa,
Fəhm edib anlat nədən bülbül gülə eylər pəsənd?

«Qövmü-Məcnunəm» – deyib, laf eyləmə, ey naxələf,
Qoy sübuta zənciri, göstər, hanı ol bazubənd?

Gər Günəşdən nur almasa olmaz şirin bostanda bar,
Eşq ilə mövcud olur nazəndələr ləbində qənd.

Vəsli-yar qəsdiylə mən köhlənimə oldum süvar,
Kaş, Əli, köhlən ola nisbətdə ol Düldül-səməd.

* * *

Ey məni tərk eyləyən, var sinədə çox söz hələ!
Sönməyib qəlbin odu, kül içrə çoxdur köz hələ!

Vəslinə yoxdur ümid, barəndə çoxdan bilmişəm,
Mən özüm əl üzmüşəm, ardınca qalmış göz hələ!

Can gedib, yoxdur əsər, dözməyə taqət qalmamış,
Kül olub yanmış ürək israr edir: sən döz hələ.

Eşq əgər məhv eyləsə fəryad olub göylərdə mən
Aləmi dəng eylərəm çox-çox gecə-gündüz hələ.

Zahida, və'z eyləmə gözdən kənar qüdrəti sən,
Göz önü çox mətləbi dərk etmirik heç biz hələ.

Ey Əli, eşq söhbəti çox yandırıb ağzım, dilim,
Çəkmirəm ondan əlim, gör, məndə vardır üz hələ!

* * *

Ey könül! Bəsdir, bu eşqin bir də nəfin gözləmə!
Yatdı bəxt, açmaz daha sənduği-seyfin, gözləmə!

İstəmişdin Tanrıdan təbdili-dünya busəyə,
Vermədi, verməz, onun sən böylə səhvin gözləmə!

Ol qədər kim, boynuna dünyadə təqsir yığmısan,
Xam xəyallar bəsləyib, divanda əfvin gözləmə!

Düşmənin ömrü uzun, həm bəxti yeydir hər zaman,
Sən onun qarğış ilə dünyada məhvin gözləmə!

Nəqdi can versən belə, tutmaz sənin sevdan daha!
Boş, dəyərsiz haqq ilə sən hifzi-dəfin gözləmə!

Qılmadın öz başın vaxtında düzgün çarə sən,
Eşqidə tutmaz daha heç kəs tərəfin, gözləmə!

Çıxdı əldən gün-güzəran, getdi xoş dövran, Əli,
Bir daha aşiqlərin məstanə keyfin gözləmə!

* * *

Dil tökmə sən, ey dili-suzan, çeşmi-xumarə,
Salmış necə gör, aşiqi ol, atəşi-narə.

Cəhd eyləmə, hicran odu giryan ilə sönməz,
Mövcud edər ol, bir yeni ümmanı dübarə!

Yari-sitəmkar göydə əlçatmaz, özün yerdə,
Nə sirr ilə can odlanır baxdıqca Əltarə?

Ümmid elədin, əhli-vəfa, çərxi-zəmanə,
Nə dövri-zaman, nə sədaqət gəlmədi karə.

Bəsdir, sükun ol, can üzən əfqanını susdur,
Əfqan ilə təsir olurmu sehri-səhhara?

Məhrulərə uymuşları Məcnun kimi gördüm,
Arif olan, billahi, düşməz böylə əfkarə.

Hasibləri dindir, hesabın sor bu sevdanın,
Dərd-mədaxil, can-məxaric, qəlbin içi yarə.

Şair daha yazmır, Əli, tərif gözəllərdən,
Bir bivəfa dilbər onu sövq etdi inkarə.

* * *

Yurdumuzun gözəl yeri, varlı məkandı Qarabağ,
Çox yağının töküb gözün, gözdə tikandı Qarabağ.

Verdi çörək səliblərə, indi xilaf çıxıb ona,
Qəlbi təmizdi hər zaman, sülhə inandı Qarabağ.

Dəydi ayağı torpağa qonşu xəbis quduzların,
Fasiləsiz gedir vuruş, torpağı qandı Qarabağ.

Getdi məqam, uzandı il, əlimdə yoxdu imkanım,
Boynu bükük baxır mənə, göz görə yandı Qarabağ.

Yol kəsilib, gediş-gəliş oldu çətin o yerlərə,
Yad ayağın izi-tozu yordu, usandı Qarabağ.

Gizlə özün varın-yoxun, qoyma dəyə bulağına,
Göz yaşı tək təmiz suyun vermə, amandı, Qarabağ!

Bil ki, sənin əsirliyin geci-tezi yetər sona,
Yaz ki, Əli, şəhidlərin içdi bu andı, Qarabağ!

* * *

Qıl kərəm, ey sevdiyim, aşiqi-mərdanəyə bax!
Nola, ey afəti-can, dövrəndə pərvanəyə bax!

Bəhri-eşqin tə'kinə gəncinə sövq etdi məni,
Ayna tut, zəri-ziba, lölövü-dürdanəyə bax!

Qərqdir tufanlara sənsiz səadət gəmisi,
Gör icadın gərdişin, məsnavü-tərsanəyə bax!

Əhvalım təsvir ola, min qəmli dastana dəyər,
Nə oxu Əsli-Kərəm, nə qeyri əfsanəyə bax.

Qəlbi nalan bəndəyə, zahida, məhşər nə gərək,
İndidən yar sinəmi, daxildə viranəyə bax!

Bəzmi-eşq divanına üz tutma, ey əhli-vəfa,
Hökm edən sultanı gör, məhbusi-zindanəyə bax!

Yar cəfasın çəkməyə göstərmə timsal Əlini,
Sən mənim şəxsimdə, gəl, təslimi-hirmanəyə bax!

* * *

Gözlərim fürsət gəzir, bir ağlamaq imkanı yox,
Qəm yükündən göz yaşın ta saxlamaq imkanı yox!

Qanciyər etmiş məni – müjgan oxun peykanıdır,
Nə axan qanım kəsir, nə bağlamaq imkanı yox.

Jalə tək bir damlayam bir məhliqa zülfündə mən,
Sel olub nə kükrəmək, nə çağlamaq imkanı yox.

Nadanı qandırmağın eşq üzrə müşgüldür yolu,
Daş ürək yanmaz oda, həm dağlamaq imkanı yox.

Düşmüşəm yardan kənar, hicran kəsib bəndim, yolum,
Ayrılıq səddin aşıb bir yoxlamaq imkanı yox.

Bir qaragöz ceyranın ardıncayam çoxdan, Əli,
Nə kəməndim tuş gəlir, nə oxlamaq imkanı yox!..

* * *

Vüsalından kənar, ey gül, bu dünyada gözüm yox!
Həya, ismət kəsib bəndim, açıb söylər üzüm yox!

Qoyub həsrət məni darda, əlim çıxmış köməkdən,
Aşıb həddən müsibət, nə gecəm, nə gündüzüm yox!

Cəfa çəkmək məhəbbətdən deyirlər kim, sınaqdır,
Basıb səbrim, çəkib gördüm əbəs sözdür, lüzum yox!

Dedim: ey dil, nədən dərdim belə bitməz qalıbdır?
Dedi: qafil, bu cür dərdə bilir aləm, çözüm yox.

Dözər olsam, deyirlər kim, xilas ollam bəladan,
Gedib canım, qalıb cismim, nəfəs vardır, dözüm yox!

Dilim batmış, ahım-naləm çöküb qalmış sinəmdə,
Sitəmkarım nə cür bilsin, daha dildən sözüm yox?!

Əli, dersən özün qurtar bu zillətdən, zülümdən,
Bu cür möhnət yolun tutmuş ürəyimdir, özüm yox!

* * *

Ömrü sərf etdim qışa, fəsli-baharım gəlmədi,
Nazını çox çəkdiyim nazlı nigarım gəlmədi.

Yandı həsrətdən dilim, Yarəb, haçandır gözlərəm,
Ötdü il, döndü fəsil, istəkli yarım gəlmədi.

Ahular bəzmin tutub bihudə fürsət gözlədim,
Gəldi hər sevdalı dilbər, öz şikarım gəlmədi.

İstədim qismət üçün bir qeyri səmtə üz tutum,
Çox dayandım, gözlədim mən, yol qatarım gəlmədi.

Bir münəccim söylədi: bəxtin yatıb, ey binəva,
Oldu agah ki, nədən çeşmi-xumarım gəlmədi.

Hər yazan tökdü üzə hər üzrə əş`arın, Əli,
Ortaya eşqdən savay bir qeyri varım gəlmədi.

* * *

Neyləmişdim, ey fələk, gülşəndə bağım qalmadı?
Qəm oxuyan bülbülümçün bir budağım qalmadı!

Zülmü-zillət çəkib zəhmətlə bustan eylədim,
Qəhr olub getdi hədər, tək bircə tağım qalmadı!

Yandı canım dərd ilə, atəşdədir cismim bütün,
Dərdimi izhar üçün həm dil-dodağım qalmadı!

Puç olub hər niyyətim ömrümlə bahəm dünyada,
Dəhrdən getdi izim, sirrim-sorağım qalmadı!

Yar deməkdən yandı bağrım, düşdü oddan-odlara,
Bir gecə ol bivəfa barı qonağım qalmadı!

Məlumat var ki, rəqib məndən də pis bir haldadır,
Çox şükürlər Allaha - sinəmdə dağım qalmadı!

Məcnuna nisbət bilib hər kəs kənar tutdu üzün,
Getdi dost, qardaş-qohum, bir tək dayağım qalmadı!

Son məqam gəlmiş xəbər: səbr et, sınaqdır bu, Əli,
İndi tabutdan savay heç bir sınağım qalmadı!

* * *

Canana can-can dedim canımda ta can qalmadı!
Qəlbimə yan-yan dedim od tutdu, bir yan qalmadı!

Çölbəçöl düşdüm çölə, dərman tapım dərdimə mən,
Birbəbir gəzdim, aradım, bir biyaban qalmadı!

Qal olub qaldım bu qiylü-qalda mən yanımda yad,
Qaldı hər kəs, "qal", dedim mən, nazlı canan qalmadı!

Dili-zarım dil dedi, dilləndi dildarım üçün,
Dil deməkdən başqa məndə özgə imkan qalmadı.

Sanbasan getdikcə gün gəlməz olur dərdim sana,
Günbəgün saydım günüm, qurtardı, ta san qalmadı!

Halbahal halım olub, yox taqəti-halım daha,
Ərzi-halım söylədim, yarım nigaran qalmadı!

Yazhayaz xəlvət yazır sirrin Əli – çox yazdılar,
Cümlə cəmin cəmləyib açdım, o, pünhan qalmadı.

* * *

Nazı-qəmzən, ey sitəmkar, saldı odlara canı,
Varsa insafın əgər, bir də'fə göstər ki, hanı?

Mən sənin hər cövrünə mərdanə gərdim sinəmi,
Yox cəfakeş mən kimi, billahi, gəzsən cahanı.

Öldürüb məhv etmisən qəlbimdə könlüm quşunu,
Hökmü-haqdır Tanrımız, bil, yerdə qoymaz bu qanı!

Sorma sən dərmanımı biganələr içrə, təbib,
Varmı gör bu bəzmidə eşq üzrə dərdim qananı?

Bircə yol yar busəyə nolar ki, imkan eləsin,
Vermərəm fürsət düşə, ölsəm də əldən bu anı!

Bir səyahət istərəm yarımla bahəm gəmidə,
Var ümid nail olaq, gər gəlsə Nuhun tufanı!

Mən kimi biçarələr çoxdurmu? - sordum Əlidən,
Baxmadan ol dəftərə barmaqla göstərdi sanı.

* * *

Ey fələk, bir bəxti kəm mən kimi, xilqətdə hanı?
Taledən bir zərrəcən varsa pay qismətdə, hanı?!

Çərxi-dövran sitəmi qəsd ilə yandırdı canı,
Bəndəyə gəlmiş cəza bir belə şiddətdə, hanı?!

Hər tərəfdən qəm yağır, san, gəlibdir Nuh tufanı,
Bir quru ümmid yerim Qaf-cəbəl nisbətdə, hanı?!

Dedilər: möhkəm yapış, vermə sən əldən imanı,
Böylə də məhvəm əgər, məna ol hikmətdə hanı?!

Çox yerə saldım soraq, haq deyib gəzdim cahanı,
- Yoxsa öz yurdunda bu, - güldülər, - qürbətdə hanı?!

Xainin, təqsirlinin xoş keçir hər yerdə anı,
Hökmü-qəm bəs onlara sahibi-qüdrətdə hanı?!

Ya Əli, təhlil edən varmıdır haqsız olanı?
Varsa gər yatmışmıdır, böylə bir müddətdə hanı?!

* * *

Xilqətin hər surəti bir ehtiyac zəmnindədi,
Bilmişəm artıq bunu, qəlbim bunun əmnindədi.

Gər gözəl ceyranları həm ovlamaq fərz olmasa
Ol həyat nəqqaşının nəqşində bəs mə'na nədi?!

Varlığım düsturunun cəhd eyləyib təhlilinə
Tapmışam isbatını, - tətbiqi-qəm fənnindədi!

Böylə kim, qəm yükləyir xaliq mənə gündən günə
Bəlkə də insan deyil, barəmdə fil zənnindədi!

Cəm ola təlim əgər, insan duyar çox mətləbi,
Bəs nədir məqsəddə kim, hər kəs özəl bir dindədi?!

Nəğməmi şad etməyin imkanı məhduddu, təbib,
Çün, onun çox pərdəsi bir həsrətin himnindədi!

Ya Əli, göstər kömək, tərk eyləyim qəm mülkünü,
Söyləyirlər həm bu da zalım fələk iznindədi!

* * *

Canana can təslimi can üçün şəfqətdi, nədi?
Eşqə qurban getməsi aşiqə şöhrətdi, nədi?

Can alan nazəndələr söylənir artıb çoxalır,
Leylilər can qoydular, bu, yeni xilqətdi, nədi?

Hər qələm gəzdirənin dəftəri «yar-yar»la dolur,
Varmadan fərqində kim, sonluğu möhnətdi, nədi.

Bir sənəm surətliyə dərdimi mərdanə dedim,
Öylə üz göstərdi kim, guya bu, minnətdi, nədi.

Yüz kərə can söylədim, bir kərə yoxdur cavabı,
Yahu, bu, dilsizmidir, ya özgə millətdi, nədi?

Yar mənə mən eyləyib hücreyi-vəslin dolanım,
Kafərəm guya ki, mən, ol isə cənnətdi, nədi.

Tökmə yaş gözdən, Əli, ağlama eşqində müdam,
Vəsl üçün qan ağlamaq muzd ilə xidmətdi, nədi?

* * *

Cəhd edir könlüm yenə seyri-səmadan dolayı,
Vəsli-canan bildiyim təyri-hümadan dolayı.

Fəsli-gül əyyamıdır, cansızlara can verilir,
Bəzri-rişə daş dəlir nəşvü-nümadan dolayı.

Özgə yox, ölsəm məni ay üzlü yar öldürəcək,
Çün, fəda qəsdindəyəm hüsni-simadan dolayı.

Əhvalım dilbilməzə naşı mütərcim danışıb,
Nə olub, olmuş mənə ol tərcümadan dolayı.

Biqərar divanəyəm, ünvan mənə çöldü, təbib,
Yoxmu uyğun bir dəva bu tərkimadan dolayı?

Hər nə dərd olmuş icad əflakə üstümdə biçib,
Tək biri ölçülməyib cümlə-cəmadan dolayı.

Uçdu məbədin,Əli,qəsdiylə zalım fələyin,
İndi nə minnətdi bu, bərbad komadan dolayı?!

* * *

Daş tökər göydən fələk, biz əgər imkanə yetişsək,
Nola fəzlullah ilə yol bulub bir yanə yetişsək?

Naxələf əğyarilər məclisi-üşşaqəni tutmuş,
Məcburuq hərb eyləyək, yön tutub meydanə yetişsək.

Min dəfə «həq» söyləyək, həqqimiz dərgahə yetişməz,
Fərqi yox, əfqan ilə göydəki Keyvanə yetişsək.

Malı-mülk, zəri-ziba dəhrdə nadanlar üçünmüş,
Zərrə pay düşməz bizə, hətta gər pürkanə yetişsək.

Ya gərək Məcnun olub qisməti çöllərdə gəzək biz,
Ya gərək başdan keçək, tişəli Kuhkanə yetişsək.

Bixəbər bəndələrik, çərxi-dövran felini sormun,
Bilmərik fitnə nədir yüz kərə Şeytanə yetişsək.

Ya Əli, İsrafilə söylə kim, amadə dayansın,
Çün, qiyamət eylərik fəhm ilə irfanə yetişsək.

* * *

Bülbülü şeydalarıq qalmış səadətdən uzaq,
Naləmiz göylər dəlir nazəndə afətdən uzaq.

Aşiqi-nalanlarıq, yoxdur müalic bizlərə,
Düşmüşük çoxdandı həm sağlam qiyafətdən uzaq.

Çölləri, səhraları seyr etmişik hicran ilə,
Tənha qəmlər udmuşuq hər cür ziyafətdən uzaq.

Dünyanı tərk eyləmək bizləri qorxutmur, fəqət,
Qalmarıq bir dəm belə, mehri-məhəbbətdən uzaq.

Əql ilə yar sevmişə aşiq deməz aqil olan,
Ol məgər aşiqmidir Məcnun ləyaqətdən uzaq?!

Nadanın, biganənin ardınca yox hiddətimiz,
Qəlbimiz tutmuş qərar hər bir ədavətdən uzaq.

Cəm olub meydan, Əli, eşq üzrə qurbanlar ilə,
Dur, tələs, ver canını, qalma şərafətdən uzaq.

* * *

Vəsl üçün, ey binəva, iş təkcə zəhmətdə deyil,
Boş xəyaldır aşiqə ol şey ki, qismətdə deyil.

Sən tələb etmək ilə göylər dəyişməz qərarın,
Çün, kökü ol xüttənin arizi-xilqətdə deyil.

Aldadıb İsgəndəri zülfi-siyahin xəyalı,
Abi-heyvan maddəsi, əlbəttə, zülmətdə deyil.

Məsləkim təxrib olub daxildə qəmlər zoruna,
İndi nə islamidir, nə qeyri bi'ətdə deyil.

Eşqə can sərf etməyə yarımla vardı əhdimiz,
Söz salıb gördüm daha əvvəlki niyyətdə deyil.

Çox kədər, qəm görmüşəm, getdikcə insanı yıxıb,
Onların yüzdən biri dərdimlə nisbətdə deyil.

Ey Əli, səndən əgər yar, işdi, halım soruşar,
Söylə ki, qəmdir işi, bir özgə xidmətdə deyil.

2002

* * *

Məhv olan qarşında, yar, boş cismidir canım deyil!
Göllənən torpaqda ol, al lalədir, qanım deyil!

Ahu-zarım, fəryadım kim, külli dünyanı tutub
Səs salan ərşə mənim naləmdi, ad-sanım deyil.

Çarpılan sahillərə tufani-eşq dalğasıyam,
Qeys tək rahət o seyri-səhra ünvanım deyil!

Qəflətən ellər sənə Leyla deyər, aldanmagil,
Çün, mənim Məcnun sözü öz namü-nişanım deyil!

Gördüyün bu cam ki var, giryani – reşmim doldurub,
Bəxtəvərlər tək ləbaləb meylə fincanım deyil!

Bu, xəyaldır, sevgilim, qarşında durmuş mən kimi,
Çünki məhvəm mən özüm, varlıq da imkanım deyil!

Çox sevənlər yol tapıb yetmiş vüsala fənd ilə,
Gəldi bir vaxt ki, Əli, qəlbimcə dövranım deyil!

* * *

Fəna mülkün tutan könlüm, necə tarmar olursan ol,
Məni azad burax, bəsdir, özün idbar olursan ol.

İnandın bivəfalar vədinə, indi cəzasın çək,
Qapıl xülyalara, qəm çəkməyə icbar olursan ol.

Ürək sevdasının sirrin daha məndən xəbər alma,
İşin avand ola, get, vaqifi-əsrar olursan ol.

Nə miqdar olsa da gər, əql ilə eşqin nizam olmaz,
Ki, istər sakiri-eşq, istəsən huşyar olursan ol.

Məni məzur hesab et məclisi-üşşaqədən, ey dil,
Gedirsən get özün mənsiz, kimə həmkar olursan ol.

Səadət mülkünə yetməz, Əli, hökmün məhəbbətsiz,
Tutaq lap sahibi-cəm, külli-ixtiyar olursan ol!

* * *

Göndərən ol dilbəri zalım fələkdir, bilirəm,
Məqsədi aşiqlərə zülm eyləməkdir, bilirəm.

Bənzədir nisbətini Leylayə Məcnun kimilər,
Böylə söz əlbəttə kim, boş bir küləkdir, bilirəm.

Büsbütün dünyanı mən gəzdim ki, oxşar arayım,
Tapmadım bənzər ona, dünyada təkdir, bilirəm.

Kim görür gər qamətin gerçəkli heyrət bürüyür,
Şübhə yox, göydən gəlib, ol bir mələkdir, bilirəm!

Vəslinə min dil tökən hər gündə artıb çoxalır,
Bə'zi lap haldan düşüb, əldən-ətəkdir, bilirəm.

Tanrıdan üz bağlayıb mən də təvəqqəm elədim.
Neyləyim, hərçəndi bu, müşgül diləkdir, bilirəm.

Ey Əli, eşq əhlinin əqlinə min tor qurulur,
Böylə bir xilqət özü bir növ kələkdir, bilirəm!

* * *

Vüsal zikrin tutub gər hicrimi dandırdı muğam,
Nədən bəs böylə, yarəb, könlümü yandırdı muğam?

Dönübdür surətim ol nəğmeyi-mümtazə tərəf,
Sükut et, ey müəzzin, xaliqi andırdı muğam!

Məhəbbət hökmünə bax, naləsi göydən ucadır!
Alıb başdan xəyalım ərşi dolandırdı muğam!

Cidal cəhdin dayandır, ey müxalif, durdu zaman,
Tutub göy qübbəsin ol çərxi dayandırdı muğam!

Münəccimlər nə bilsin sirrimi, ey dil, bu gecə?
İtib səyyarələr, çün nurə boyandırdı muğam!

Nə rəğbətdir, Əli, bu, eşq ilə hicran arası?
Təzad şəklində bir ülfətmi oyandırdı muğam?!

* * *

Qan töküb qanım içən, mən qanıma qan istərəm!
Baş kəsib canım alan, bil, canıma can istərəm!

Od vurub yandırmısan, nar içrə səbrim qalmamış,
Sən də düş tonqallara, sən də alış, yan, istərəm!

Zülm edən, bəsdir, ayıl, qorxun olsun haqdan sənin!
Bil ki, bir gün mən axır millətə üsyan istərəm!

Azma sən vicdan yolun, gəl bilmə ki, mən yatmışam,
Qorx ki, birdən baş dikəldib böylə tüğyan istərəm!

Sanma ki, tarix silər, yaddan çıxar nisgillərim,
Qoymaram yaddaş itə, millətdə ad-san istərəm!

Dözmərəm haqsızlığın mürvət yeyən iştahına,
Hay salıb, can titrədən gur səsli əfqan istərəm!

Qıymaram millət bu cür zillət çəkib qəmxar ola,
Ya Əli, xalqım üçün zövqüncə dövran istərəm!

* * *

Ey könül, qan ağladan ol sərvinazın neynirəm?
Vəslinə yoxdur güman, qəhri-güdazın neynirəm?

Bülbülü-qəmzadəyəm, tüğyan edir ömrün qışı,
Gər nəsibim nalədir, ta onda yazın neynirəm?

Aldığım hər tə'sürat eşq üzrə könlüm yandırıb,
Böylə bir surətdə bu qəlb ehtizazın neynirəm?

Vaiza, təqsirlinin nəqdində göstər tənbehin,
Nisyədir və'zin əgər, ol gur avazın neynirəm?

Yar verib imkan mənə yandıqca fəryad eyləyim,
Sinədə yoxsa nəfəs, bu imtiyazın neynirəm?!

Məhvimə fitva verən ardınca təkzib göndərib,
İş keçib işdən daha, boş ehtirazın neynirəm?

Hər dayaz bəhrə, Əli, baş vurmaram eşqimdə mən,
Məqsədim dərindədir, bəhrin dayazın neynirəm?

* * *

Nə dərdim var idi, mən zöhd ilə zahid ola bilsəm!
Tutub biganələr rəsmin, bu zümrə aid ola bilsəm!

Sənə, ey Qeysi-müdrik, büt kimi səcdə gərək olsun,
Buna əmr eylərəm, bütxanədə qayid ola bilsəm!

Rəqib bəndin kəsib ömrün onun puç eylərəm mən də,
Dönüb gər fəzldən əğyar qədər hasid ola bilsəm.

Deyirlər yarə eşqim bildirib ondan cavab allam,
Yazıb məktubla dərdim, həm özüm qasid ola bilsəm!

Sübutum, ey sitəmkar, zülmünü isbat edəcəkdir,
Qiyamət gündə gər divanidə şahid ola bilsəm!

Səfa mülkün, Əli, fəth eyləmək olmaz mənə müşgül,
Fəda qəsdin tutub eşqimdə mücahid ola bilsəm.

* * *

Həsrətin çəkmək olub könlümdə adət, bilmişəm,
Görmüşəm gül çöhrəni, bol-bol səadət bilmişəm!

Eşqdən yandırmışam qəlbimdə mən bir odlu şəm,
Başına pərvanə tək dövrüm ibadət bilmişəm!

Nalə, əfqan eyləmək gündüz–gecə olmuş peşəm,
Çəkdiyim hər naləni yarə xitabət bilmişəm.

Böylə kim faş olmuşam, mümkünmüdür dildən düşəm?
Eldə bədnam olduğum, ey dil, nəhayət, bilmişəm!

Dərdi-hicran gəzdirən bir tərki-dünya dərvişəm,
Çəkdiyim möhnət yükün həm bunca sərvət bilmişəm!

Ehtirazım yoxdu kim, eşqin verən oddan bişəm,
Vəsl üçün yanmağı mən, eşqə zəmanət bilmişəm!

Böylə bir halətdə də çox göz üçün mən həm şişəm,
Yoxlayıb bir çox ürək, çox kinli niyyət bilmişəm!

Ya Əli, çox dostu mən təhtəl hesabdan silmişəm,
Öylə kim, təhlil edib, onda xəyanət bilmişəm.

* * *

Cəbhədir eşqim mənim, illərdi ki səngərdəyəm,
Nə döyüşkən əsgərəm, nə başbilən sərkərdəyəm.

Sağmıyam, ya ölmüşəm dilbərimə fərq eyləməz,
Öylə kim, mən var ilə yox ortası bir yerdəyəm.

Məqsədimdir toplamaq ətrafıma peymanələr,
Ol səbəb əldə kitab mən gündəlik minbərdəyəm.

Etmə cəhd, ey tarizən, şad qılmağa əhvalımı,
Sızlayan qəlbim ilə başdan-başa qəm pərdəyəm.

Bəxtəvər ol şəxsə kim, xeyrindədir sevdasının,
Sevdiyim andan bəri dünyam dönüb - məhşərdəyəm.

Can verən axtarma sən, ey can alan Əzrayilim,
Durmuşam amadə mən, ki hal-hazır qənşərdəyəm.

Ey Əli, meyxanəyə üz tut deyir məstanələr,
Nə ayaq getmir daha, nə mən bu cür şakərdəyəm.

* * *

Öylə kim, dilbərimin mən xətti-xalın görmüşəm,
Dünyanın san, göz açıb cahü-cəlalın görmüşəm!

Göydə ol göy qurşağın artıq nəzərdən atmışam,
Onda kim, öz yarımın əbru-hilalın görmüşəm!

Həm gedib azadəlik əldən məhəbbət qəhrinə,
Üstəlik hicran çəkib dərdin, məlalın görmüşəm.

Daxilimdən gahi şad, gahdan mükəddər olmuşam,
Öz içimdə şadla naşad intiqalın görmüşəm.

Çəkmə çox təsvirə, ey nazim, məhəbbət əhlini,
Onların səhradə mən ən pürkamalın görmüşəm!

Bivəfadan, ey könül, qıl ehtiyat eşqində sən,
Qeyri-sadiq insanın min üzdə halın görmüşəm.

Vəsldən sən, ey Əli, çox tutma sorğuya məni,
Mən yazıq ol mətləbin yalnız xəyalın görmüşəm.

* * *

Gəl sevin, ey nazənin, məcnunların cərgindəyəm,
İndi nə qüssən çəkir, nə hicr ilə gərgindəyəm.

Döndərə bilməz məni yüz sən kimi dildən şəkər,
Çün, daha nə dərd bilir, nə şad günün fərqindəyəm.

Dərdi-eşq dərmanını sən qoy uzaq məndən, təbib,
Könlümə yol tapmışam, hicrin daha tərgindəyəm.

Gəzməsin bir kəs məni, təxmin edib ünvanımı,
Gendi səhra, kim bilər qərbində ya şərqindəyəm.

Bir dəniz səyyahıyam, qəmdir səfinəm yığdığı,
Yelkənim yıxmış fələk, tufanların qərqindəyəm!

Neyləsin dərman yazan bu biqərar divanəyə? -
Gah sükunət əhliyəm, gahdan bulud bərqindəyəm.

Ya Əli, bildim nədir eşq üzrə sirət-müstəqim,
İndi bu fəhmim ilə çox mətləbin dərkindəyəm.

* * *

Dağlanan qəlbimlə, ey şux, atəşi-nar kimiyəm,
Can odu örtüb gözüm, eşq içrə bimar kimiyəm.

Dil çıxardıb böylə kim, arxanca canım sürünür,
Bə'ni-insandan dönüb torpaqda bir mar kimiyəm.

Öldüyüm, ya qaldığım hər kəsdə şübhə doğurur,
Nə o dünyam bəllidir, nə sağ qalıb var kimiyəm.

Harda kim, söhbət gedir, barəmdə əfsus deyilir,
Çün fələk puç eyləmiş bir əhdi-ilqar kimiyəm.

Vəslinə səcdəm ilə həm ehtiqadım pozulub,
İndi nə münkiri-din, nə sidqi-dindar kimiyəm.

Cövrünün hər surətin sən məndə tətbiq eləmə,
Mən yenə, hər nə ola, eşq üzrə simsar kimiyəm.

Etmə sən məndən vəkil təhqiqi-eşqində, Əli,
Mən özüm bədnam olub, el içrə tüncar kimiyəm.

* * *

Ey mənə və'z eyləyən, vicdanını göstər, baxım!
Gözlərə kül sovuran xırmanını göstər, baxım!

Qur sözün həndəsədən, anlat nücumdan düsturun,
Fəlsəfə elmində sən irfanını göstər, baxım!

Gəl açaq cəbrin için, bəhs eyləyək həm kimyadan,
Zərrəcik bəzmindəki səhmanını göstər, baxım!

Sal nəzər məzmununa dördölçülü sistemlərin,
Dünyanın dərkindəki imkanını göstər, baxım!

Söz düzüb beş-on sətir, sanma qəzəlxan olmusan,
Elmdən şe'rində sən ehsanını göstər, baxım!

Söz qəfilən baş alıb səhradə yol azmaqdadır,
İsmi iste'dad olan sarvanını göstər, baxım!

Nadana kar eyləməz heç vaxt ədalət batili,
Haqq üçün gözdən axan giryanını göstər, baxım!

Çox yazar peyda olub kim, ölkədə çatmır kağız,
Bu işə dair, Əli, fərmanını göstər, baxım!

* * *

Şuri çal, ey tarizən, Şur ilə şadman olalım,
Hicri dəf etsin muğam, vəsl ilə xudman olalım!

Musiqi cəlb eyləsin rövzeyi-rizvanə bizi,
Bəni-insandan dönüb huriyi-qılman olalım!

İxtiyarsız jalə tək tutma gül üstündə qərar,
Musiqi zövqüylə, gəl, birləşib ümman olalım!

Ver səadət mülkünü hökmünə nazəndələrin,
Hər nə pay düşsün bizə, təslimi-fərman olalım.

Sinəmiz olsun sipər peykani-müjganə bu gün,
Bu fədakarlıq ilə xatirinişan olalım!

Saqi, gizlət badəni, kühl ilə azdırma bizi,
Qoy vəfa əhdin qılıb sidqi-müsəlman olalım.

Bihesab bəndələrik, ya Əli, idrakə yetir,
Fəhm edib hər müşgülü, sahibi-dərman olalım.

* * *

Könül, sondur daha, ol yar nəyə lazım?
Bu halətdə o zillətkar nəyə lazım?

Sevin, şadlan, məramım tərki-dünyadır,
Sürur bəzmində bədrəftar nəyə lazım?!

Kəfən tut sadədən sən, adəti – islam,
Hüzur-həqdə libas-şəhvar nəyə lazım?!

Kənar dursun məhəbbətdən dönən kəslər,
Könül zəvvarına küffar nəyə lazım?!

Məni öyrətmə gəl inkarə, ey müslüm,
Məqami – alidə ənsar nəyə lazım?!

Məzarım qoy uzaq məqbəri-Qeysdən ki,
Töküb giryan, müdam ağlar, nəyə lazım?

Əli, fərmani-məhvin gəldi, hazırdır,
Pərişan olmasın dildar, nəyə lazım?

* * *

Naəlac qaldım, açıb dərdim o dildarə dedim,
Qan olub ağzım mənim, bir busədir çarə dedim!

Qaş düzəldən mən kimi həm göz tökər-sözdü qədim,
Çün, özüm zülmün yolun çaşdım sitəmkarə dedim!

Eşqimin möhnətinə pünhani mübtəla idim,
Oldu faş aləmdə bu, mən öylə kim, yarə dedim.

Ucbatından mən sənin, - söylədi: - eldənmi gedim?
Üz tutaq biz əl-ələ, gəl seyri gülzarə, dedim.

Hər qədər tutdum əziz, yardan yenə tə'nə yedim,
Yandırıb, bağrım bölüb, onçün ciyərparə dedim!

Ya Əli, oldur Sənəm, bu rəsmə qoy səcdə edim,
Çoxları təsdiq edib, mən hanki dindarə dedim.

* * *

Eşq evim tikdim özüm, qurdum imarət eylədim!
Hər zaman kəbəm təkin döndüm ziyarət eylədim!

Min dəfə yar oxlayıb qoymuş viran könlüm evin,
Bir daha mən binəsib təkrar cəsarət eylədim!

Daş ürək qoydum özül bir nazlı dilbərdən alıb,
Məhlulun gözdən axan yaşdan ibarət eylədim!

Namə yazdım sevdiyim ol yarə kim, salsın nəzər,
Düzmü qurdum mə'bədim, ya ki kəsarət eylədim?!

İstədim bir söz alım, dərdim üçün məlhəm olar,
Öylə tüğyan etdi kim, sandım həqarət eylədim!

Zülfünün bir tək telin meh saldı, tez tutdum həmən,
Qeyz ilən bir baxdı kim, mən guya qarət eylədim!

Ḥalətim təhlil üçün mən topladım məcnunları,
Qurduğum məclisdə ol, başdan sədarət eylədim!

Cananı gördüm, Əli, lal oldu ağzımda dilim,
Çatmadı məqsəd ona, nə kim işarət eylədim!..

* * *

Çox sevən aşiqlərin mən xoş həyatın görmədim,
Dərdi – qəm dəf etməyə fərman-baratın görmədim!

Kim ki vermiş sinəsin hicran oxun dəf eyləsin,
Tarimardır qəlb evi kim, islahatın görmədim!

Çox özün möhkəm bilənlər məhv olub getmiş fəqət,
Heç kəsin məndən savay dönməz səbatın görmədim!

Ey cünun, səhraları axtarma dərmanın üçün,
Çölbəçöl düşmüşlərin bir hasilatın görmədim!

Nazənin canlar yolunda çox cəfalar çəkmişəm,
Onların nə lütfünü, nə iltifatın görmədim!

Dedilər Məcnun olum, dərdim yenə Leyla çəkər,
Boynu zəncir dəştə getdim ixtilatın görmədim!

Kizbü-böhtan söyləyən çox kəslərin baxdım, Əli,
Bir tutarlı soykökün, əsliylə zatın görmədim!

* * *

Badə ver, saqi, bu gün əhvali-şadımdı mənim!
Badeyi-mey ləzzəti ağzımda dadımdı mənim!

Feyziyab bir bəndəyəm feyzində divanəliyin,
Bəxtəvərlik üzrə bu, bir istinadımdı mənim!

Dün gecə niyyət tutub gördüm hilalın yuxusun,
Olmasa mənada qaş, təyyar qanadımdı mənim!

Can verib qəm aldığım sevdamda peşman deyiləm,
Kimsə bilməz nəfimi, öz iqtisadımdı mənim!

Əqli-idrak söhbəti artıqdı aşüftələrə,
Bihesab zahidlərə bu bir iradımdı mənim.

Xiştü-qəmdən hörmüşəm qəlbimdə səhman evimi,
Dərdi dərd üstə duran beytül-abadımdı mənim!

Nə qədər aləm durur eşqimlə dünyadə varam,
Çün, dönən dövranda bu, dönməz inadımdı mənim!

Xeyri gər varsa, Əli, hicranda məstanəliyin,
Bəs bu nə əfqan səsim, dadü-bidadımdı mənim?!

* * *

Ərşi lərzəyə salan naleyyi-ahımdır mənim,
Neyləyim, ah-nalələr bir növ silahımdır mənim!

Bəxtəvər tərsa ki var, meyxanədə qəm öldürür,
Müslüməm, mehrabi-məscid son pənahımdır mənim!

Ey nigar, qurbanlığam, can tərki çoxdandır qərar,
İndiyə sağ qaldığım, əfv et, günahımdır mənim!

Hüsnünü ay bədrinə kimdir o pürfən bənzədib?
Ol, məgər bilmirmi aləmtab sabahımdır mənim?!

Qurtulub hər qayğıdan yalnız sənin eşqindəyəm,
Möhnəti çox olsa da, ən xoş rifahımdır mənim!

Eşqmin cəzmində mən bir əmri-aləm bulmuşam,
İftixar etmək gərək, bu, intibahımdır mənim!

Naşılıqdan, ey Əli, üst-üstə qəmdən bol yedim,
Canımı məhv eyləyən, vallah, tamahımdır mənim!

* * *

Tərki-aləm sanmayın kim, intiharımdır mənim,
Əhli-aləm nəfinə bir ixtisarımdır mənim!

Binəsiblər baş alıb dünyanı tutmuş mən kimi,
Bir nəfər əskik edəm, bu, iftixarımdır mənim!

Açma, zahid, söz mənə təhlili qurban üzrə sən,
Can fəda etmək işi öz ixtiyarımdır mənim!

Qoymaram qalsın daha bir ehtiyac Əzrayilə,
Canımı tapşırdığım istəkli yarımdır mənim!

Çox könül səlnaməsi tarixdədir dastan kimi,
Düşdü fürsət, böylə imkan indi varımdır mənim!

Tə'nələr yağdırmasın əğyar ki, atdım yurdumu,
Ölkəmin yer altı da cənnət diyarımdır mənim!

Yaz, Əli, göstər sübut nəzminlə sən şahid kimi,
Axirət son isbatım tək intizarımdır mənim!

* * *

Vəslinə bənzər, gülüm, mən hansı bustandı deyim?
Yahu, bu, rövzeyi-rizvan, ya gülüstandı deyim?!

Göz dəyər məndən sənə, nəfsimdə fəxranəliyəm,
Nola göstər bir qüsur, mən də bu, nöqsandı deyim!

Nəzmimin əksər çoxu vəsfinlə mümkün olunub,
Var həqiqət bunda kim, şəninə dastandı deyim!

Halına heyranlığım halımı haldan çıxarıb,
Bu məlahətdən halım meysiz də məstandı, deyim!

Mülkü-hüsnün fatehi yüz hökmü-fərman eliyir,
Yaz, Əli, tərif ona, şövkətli sultandı deyim!

* * *

Bir təriqət əhliyəm ki, eşqdir mə'bud bildiyim,
Dərdi-hicran əhlidir həm şadi-mə'sud bildiyim!

Yox səbəb tənqid edəm qəm mülkünün əndazəsin,
Qeyri-məhdud mülk imiş miqyasda məhdud bildiyim.

Kimsədən sordumsa haq tə'süflə ol tərpətdi baş,
Anladım çoxdan ölüb illərdi mövcud bildiyim.

Zalımı məzlum sayıb səhvən ona əl tutmuşam,
Hal bu kim, Nəmrud olub Musəvi-iyyud bildiyim.

Şad xəbər göydən çatıb – insaflı canan xəlq olur!
Sən demə, yoxmuş hələ haqqında mövlud bildiyim.

Günbəgün əskik gəlir cismində can qəmdən, Əli,
Gizli bir dərddi ola, mən səndə behbud bildiyim?!

2002

* * *

Çıxdı əldən, ey təbib, ol ümidvar olduğum,
Yıxdı canım dərd ilə bu giriftar olduğum!

Aldı başdan əqlimi könlümün israrı, həm
Saldı bu zindanə təkidlə icbar olduğum.

Çoxdu bərbad səhra ki, olmuşam qul dərdə mən,
Yoxdu bir beytül-sürur hökmü-sərdar olduğum!

Gəzdirib dünyanı eşq, guya qibləm axtarır,
Bezdirib, billah, məni bunca zəvvar olduğum.

Qazdığın sən, ey fələk, ol quyun udmuş məni,
Yazdığın qismətmidir böylə idbar olduğum?!

Dağlayan sinəm o yar al görür çöhrəm mənim,
Çağlayan göz qanıdır üzdə əhmar olduğum!

Qan gəzən xunxar kimi izləyir hicran, Əli,
Can əzən yükdür daha eşq ilə həmvar olduğum.

* * *

Təbiba, sorma gəl pünhanımı əhləl-əyalımdan,
Xəbərsizdir əyalım binəsib aşüftə halımdan.

Təcəssüm gördüyün ol rəmzi-xülyamdan nəzərin çək,
Ki, bir hasili-illac yox ələgəlməz vüsalımdan.

Sağalmaq dərdi-qəmdən aşiqi-zarçün nə münasib?
Nə tədbir eylərəm behbudə kim, keçməz xəyalımdan?

Olub silsileyi-naləm ilə göylər yerə mərbut,
Fələk məmnun gərək olsun bu xidmət intiqalımdan!

Nə müddətdir kəvakiblər xəcalətdən itir gündüz,
Peşimandır yazıqlar bəd gələn hər rəmli-falımdan!

Uğursuz bəxt ilə könlüm quşu bayqulara yemdir,
Xilas mümkünmüdür viranədə ol zülmü-zalımdan?

Gedib ömrüm, Əli, bir vəsli-canan qəhrinə əldən,
Qalıb ancaq quru zəhmət müdam cəhdi-fəalımdan.

2002

* * *

Fələk bəxtim kənar yazmış bütün dünya cəlalından,
Deyən düşmüş mənə qismət onun ancaq məlalından.

Elə cızmış, elə pozmuş, qələmindən açılmır baş,
Nə diqqətnən nəzər etdim, oxunmur nəf bu alından!

Sorun ondan, cavab versin, nədir məqsəd əməlində?
Daha bezdim tanış-dostun mənə ünvan sualından.

Kitab onda, hesab onda, bilər yəqin günün-vaxtın,
Əgər varsa mənə təxlis həyatın qiylü-qalından.

Veribdir sağ əlindən bəxti çox nakəslərə göylər,
Mənim tək binəsib kim var, xəbər yox ərzi-halından.

Bu saf qəlbim çürütməkçün əkib dərd-qəm, salırsan bağ,
Düşün, mümkünmüdür, zalım, bunun çıxmaq vəbalından?

Cəza çəksin imansızlar, - tikan çıxsın ürəklərdən,
Əlim göylərdədir ən çox bu niyyətin xəyalından.

Müdam nəfsin azar yoldan, xilasındır onun məhvi,
Əli, sən tut elə yol kim, götür qismət halalından.

* * *

Ey salıb könlüm oda, qəlbimdə qəm, hicran olan,
Ey özü gendən baxıb, ləzzət çəkib xəndan olan!

Varlığım qarət edib, ey can evim qoymuş talan,
Varmıdır zülmün yenə, qəlbin kimi pünhan olan?!

Yoxmu insaf səndə heç, ey naz ilə canlar alan?!
Ey susub ol büt Sənəm, dilləníbən insan olan!

Əğyarın fitvasıdır yəqin məni gözdən salan,
İndi çoxdur nanəcib, hər kəlməsi böhtan olan.

Ərzi-hal bildirmişəm şahmarə kim, çalsın ilan,
Kim ki, var niyyəti pis, nisbətdə həm şeytan olan.

Nisbi-halım zülmü-Firon söhbətin etmiş yalan,
Varmı mən tək bəxti puç, dünyası həm zindan olan?!

Ey Əli, əfsanədir olsun ki, ol Məcnun, filan,
Günbəgün əldən gedib bir tək mənəm candan olan.

2001

* * *

Tanrı tək, ey vəsli-canan, bulunmaz ləməkansan,
Bəhri-hicran daxili özgə bir gövhəri-kansan.

Nə mələklər fəhm edir, nə bilir insan qədərin,
Söylə, hanki bəzmi-əşxasi-alidə bəyansan?

Cazibən qərq eyləmiş narə çox bəndəni, zalım,
Şəmsi-aləmsuz olursan bu mövqedə dayansan.

Tərki-can naz-qəmzənin bircə fitvasına bənddir,
Neynirik Əzrayili, sən ki böylə can alansan.

Hanki səmtə üz tutam surətin qarşımda durur,
Tutmusan dünya üzün, gör nə miqdar cismü-cansan?

Nazını çox çəkmişəm xəstə bu canım ilə mən,
Bəs nədən biganəyə dost, mənə namehribansan?

Getsə də gün-gün, Əli, varlığın ehsanə, nə sud?
Ruzi-hicran nəqdidir, qeyri rəsmə nagümansan.

* * *

Edibsən könlümün zəbtin, bəladır işğalım səndən,
Əlimdə ixtiyarım yox müqabil kam alım səndən.

Tutub ərşi ahım-naləm mələlından gecə-gündüz,
Çəkirsən dağ, yanır sinəm, fənadır əhvalım səndən.

Nə müddətdir qara bəxtim düşüb qalmış düyünlərdə,
Ki, nə vəslin edir əldə, dönür nə iqbalım səndən.

Əsiri-eşqinəm dilxun, asılmış taleyim tükdən,
Qərarın ver həyatımçün – ölüm səndən, qalım səndən.

Çalışqan nəhli-şiğğil tək gülüstanın dolannam mən,
Ölüb ya burda məhvəm, ya tutar qismət balım səndən.

Vüsalın nə'finə qurban dedim can sidqi-dil, ey gül,
Bilirsən kim, budur varım, deyil gizlin malım səndən.

Əli, gizlət qəmim ondan, sanar heyfim gəlir cana,
Bəyan et kim, çəkir keflər, əgər sorsa halım səndən!

* * *

Təmannam yox bu dünyanın fələyindən,
Əlim çəkdim daha göylər diləyindən!

Bu dövran ki, belə zaydır, ədalət, haq
Görən yoxdur onun hətta mələyindən!

Kimi adil hesab etdim, inandım mən,
Müdam zillət, zərər gördüm kələyindən.

Keçirmişdir sınaqlardan məni dövran,
Çıxıb ömürüm zaman xəlbir-ələyindən.

Elə sıxmış, elə bükmüş belim qəmlər,
Canım-cismim keçər çaydan lüləyindən!

Edir üsyan könül dövrün sitəmindən,
Alıb qüvvət bəbir, aslan biləyindən!

Qələm çatmaz, Əli, dərdim yazar olsan,
Qələm tut sən azad quşlar lələyindən!

* * *

Könül möhnət çəkir hər dəm məhəbbət var olan gündən!
Əsər yoxdur vücudumdan canım ol yar alan gündən!

Bilən yoxdur su hardandır, çiçəklərdə durub dən-dən,
Tutubdur şeh bütün aləm gözüm yaşla dolan gündən!

Deyirlər kim, gözəl çoxdur, nə durmuşsan kənar, gendən?
Yaxın gəlməz, ürək qorxur tora dilbər salan gündən!

Nədən Sən'an atıb hər şey, neçin bildim, keçib dindən,
Götürməkçün nə qalmış kim könül bərbad, talan gündən!

Dəyanətdir sevənlərçün əsas dərman bilirdim mən,
Paralanmış ürək dözmür fələk xəncər çalan gündən!

Yetib vəslə murad almış ümid yoxdur ola məndən,
Bu mə'lumdur, bilir hər kəs gülüstanım solan gündən.

Keçən günlər keçib getmiş, hesab kimdir soran səndən,
Hesabın sor, özün artıq, Əli, beş-on qalan gündən.

2001

* * *

Yorulmazdım sənə, Allah, ibadətdən,
Neçin ömrüm kənar qoydun səadətdən?

Xeyir tapmaz əzəl gündən qara bəxtim,
Bu cür yazdın nə təqsirdən, qəbahətdən?

Uğursuzluq olub yoldaş hara getdim,
Nə yer gəzdim zərər gördüm səyahətdən.

Kömək verdim kimi gördüm qalıb darda,
Hanı, zahid, xeyir bəs ol səvabətdən?

Qalarsam sağ, yaşadan tək məhəbbətdir,
Könül dönməz sınanmış bu qənaətdən!

Qərarımdır yetib vəslə verəm canım,
Ola çün kim, xilas ömrüm zəlalətdən.

Tapıb bir yol, Əli, hər kəs çıxıb dardan,
Yenə qaldın, tutub durdun sədaqətdən.

* * *

Gər alarsan canımı, ey gül, tələs, imkan ikən!
Eylə təhlil, ver qərarın indi canım can ikən!

Məhvimin fərmanına yoxdur daha bir ehtiraz,
Can azad olmuş olur hər bir günüm zindan ikən!

Ey mələk, gec bilmişəm bəxtimə göydən gəldiyin,
Çün, axı, hardan bilim mən bixəbər insan ikən!

Yox lüzum, mən neylərəm innən belə ay bədrini,
Ləli-ləbin şöləsi bu qədri həm əlvan ikən!

Gəl yığışdır həblərin sən, ey təbib, bəsdir daha,
Boş qərarlar söyləmə ol vəsli-yar dərman ikən!

Tapmadım tənha məqam təhlil edim müşgüllərim,
Təkliyim hardan olar bir böylə dərd mehman ikən!

Vəsli-eşqin qiymətin yoxdur bilən məndən savay,
Çün, Əli, öyrənmişəm mən günlərim hicran ikən!

* * *

Ey fələk, çox mətləbə heyrətli mizan vermisən!
Dərdli dərmansız qalıb, bidərdə dərman vermisən!

Düz olan düzlərdədir, köhlən çapır böhtan deyən,
Bəs nədən bunlar üçün sən böylə cövlan vermisən?

Əhli-haqqın kəsmisən bəndin-yolun hər bir zaman,
Haq pozan nakəslərə hər dürlü meydan vermisən!

Nanəciblər baş alıb dünyanı tutmuş büsbütün,
Mərdlərin bəxtin alıb, səbr iylə iman vermisən!

Haq tərəf durmuşların boynunda minnət çox olur,
Hər zaman haqdan alıb nahaqqa qurban vermisən!

Kimsə səndən bəxt alıb, kimlərsə qalmış bəxti kəm,
Varlının bol nəfsinə yoxsulu ehsan vermisən!

Çox kitablar, ya Əli, tökdüm, yolum axtarmağa,
Haq yolun tutdum yenə, bir ülvi Quran vermisən!

* * *

Dad deyib hicran əlindən, bir belə dad eyləyən!
Yoxmudur, ey binəva, bir kimsə imdad eyləyən!

Qalmısan çöllərdə sən biçarə Məcnun nisbəti,
Leyli yox, iqbalını kimdir o bərbad eyləyən?!

Təqsirin göylərdə gəz bu dərdi dərmansız işin,
Tuş edib dərdə səni bu sərvi şümşad eyləyən!

Çoxların gördüm ki, mən, hicran bəlası məhv edib,
Varmıdır dünyada heç bu dərdə həmdad eyləyən?!

Hər yetən bidərdə sən dərdin demə məhrəm bilib,
Sonradan divaneyi-səhra deyər yad eyləyən.

Hər tutan tişə, çapan dağ dünyada Fərhad deyil,
Eşqdir, tişə deyil, Fərhadı Fərhad eyləyən!

Ol qədər yazdım, Əli, mövzuyi-qəmdən dəmbədəm,
İndi həm qaldım özüm ah-nalə, fəryad eyləyən.

* * *

Ey mənim əqlim alıb həm sonradan naz eyləyən,
Öyrədib kimdir səni bir böylə dilbaz eyləyən?

Ya səni düşmən sözü incik salıb məndən bu cür,
Ya fələk tədbiridir qismətdə qalmaz eyləyən.

Tək sevən qəlbim ilə hörmətdəyəm aləmdə mən,
Çün, odur şöhrət verib el içrə mümtaz eyləyən.

Get-gedə aşkar olur ol gərdunun qəsdi mənə,
Kimdi bəs dərd artırıb, dərmanı olmaz eyləyən?!

Sən demə çoxdan bilir əğyar mənim möhnətlərim,
Bu imiş ol xainin keyfin belə saz eyləyən!

Heç təmannam olmayıb səndən mənim, ey xaliqim,
Bir vüsal arzusudur könlümdə pərvaz eyləyən.

Mən gərək möhkəm tutam cövrün yolun hər dəm, Əli,
Görmürəm bir özgə yol eşqim sərəfraz eyləyən!

* * *

Kim deyir aşiq gərək gözdən töküb qan, ağlasın,
Vaizi-şərdir o kəs, istər ki, insan ağlasın!

Hicri-yar çəkmək özü bir fəxridir aşiq üçün,
Ol müdam nikbin olar, lap böylə hər yan ağlasın!

Karvanın yol kəndirin möhkəm tutan sarvanıdır,
Getsə əldən karvanı, məcburdu sarvan ağlasın!

Hər zimistan məhv edir gülzarını ol bülbülün,
Binəva bülbül çəkib ah-nalə, əfqan ağlasın!

Aşikar qan ağlasan düşmən baxıb xoşhal olar,
Tab edib aşiq gərək qəlbində pünhan ağlasın!

Çərxi-gərdiş bunca kim, zülm eyləyir eşq əhlinə,
İstərəm ağlar qalıb, həm böylə dövran ağlasın!

Ey Əli, meydanə yığ qəmzadə həmdərdləri sən,
Dəhrdən köç eyləsən, arxanca meydan ağlasın!

* * *

Bəxti kəm insan odur, yanında canan olmasın!
Vəslə yetməkdən yana həm verməyə can olmasın!

Bilməsin ol, ləzzətin həm məclisi-meyxanənin,
Dərdi-hicran dərmanın içməklə məstan olmasın!

Hər yetən bilməz nədir məşuqi-məhbub dünyada,
Ol məgər aşiqmidir qəlbində peyman olmasın!

Nadürüst əğyaridən ömrüm yenə zillətdədir,
İndi gör mümkünmüdür ol, qana qəltan olmasın?!

Zahida, vəsf eyləmə sən tərki-eşqin nə'fini,
Məqsədin oldur ki, heç dünyadə insan olmasın!

Sidqi-aşiq həm gərək yansın alovdan dəmbədəm
Heçdi əlbət ol ürək, yandıqca xəndan olmasın!

Harda bir məskən tapım, gizlin çəkim hicran qəmin,
Görməsin yar halətim, bundan pərişan olmasın?!

Əhli-mey bəzmində mən çox günlərim verdim yelə,
Söz gəzir kim, ey Əli, qismətdə rizvan olmasın!..

* * *

Aşiqi-sadiq gərək eşqində bədbin olmasın,
Fəxr ilə canın verib, məhvində qəmgin olmasın!

Dərsi-eşq bəzmində ol, dursun uzaq əğyaridən,
Kim, ona böhtan və şər məqsədlə tələqin olmasın.

Təhrikə, fitvalara baş qoşmaram innən belə,
Yar sevən mümkünmüdür həm əhli-təmkin olmasın?!

Hər çətin müşgüllərə sülh iylə islah istərəm,
Nifrətin atdım daşın, qəlbimdə qoy kin olmasın.

Ey nigar, vəslin üçün mən hər gecə görrəm yuxu,
Böylə bəs insafmıdır, yüzdən biri çin olmasın?!

Can fəda etmək üçün başımda var min cür xəyal,
Binəva aşiq odur əfkarı zəngin olmasın!

Ey Əli, can sərfini sən bilmə asandır belə,
Can verən göstər mənə, əhvalı gərgin olmasın!

* * *

Ey sitəmkar, sən mənim düşmənlərim şad eylədin,
Əhvalım izhar qılıb əğyarı dilşad eylədin.

Naz ilə saldın tora, çıxmağa yoxdur imkanım,
Nə qoyub zindan içi, nə baş çəkib yad eylədin!

Eşq evi dünyam idi, daxildə tutmuşdum qərar,
Qəsd ilə ol qurduğum dünyamı bərbad eylədin!

Bir şirin söz istədim səndən qəmim dərmanına,
Nə onu etdin əta, nə özgə həmdad eylədin.

Yıxdığın könlüm evin bərpayə söz vermiş idin,
Dərdi dərd üstə qoyub könlüncə abad eylədin!

Canımı verməklə mən fəryadə imkan istədim,
İndi ol göydən gəlir, minnətlə azad eylədin.

Böylə nə zindan olur, nə qeyri bir zillət, Əli,
Düşmüsən bir dərdə kim, durduqca fəryad eylədin!

* * *

Bilmədin, eşqinlə çəkdim mən nə zillət, bilmədin,
Bildi hər kəs, küllü-aləm, cümlə millət, bilmədin.

Oldu dillər əzbəri başım çəkən ol qovğalar,
Cümlə aləm söylədi, çox getdi söhbət, bilmədin.

Gör nə vaxtdan düşmüşəm kölgən kimi ardınca mən,
Lap əzəldən vardı məndə böylə niyyət, bilmədin.

Mən tərəfdən elçi düşdü külli qövmüm sizlərə,
Baxmadın sən, nə imiş hörmət və izzət bilmədin.

Özgələr dilbir olub çəkdi səni düşmən tərəf,
Qeyzdən yandım oda, çəkdim əziyyət, bilmədin.

Düşmənin ağzın yumub, bir həmlədən susdurmuşam,
Şir kimi, aslan kimi var məndə qüvvət, bilmədin.

Yandı illərnən Əli gizlində ol vəslin üçün,
Onda boş dilbazla sən bir fərqi-nisbət bilmədin.

* * *

Çəkmərəm dərdin daha gül üzlü mahparələrin,
Çarəsi müşgül olur onlar vuran yarələrin.

Daldada yar təhnizin çəksən yenə bir yönü var,
Çox yamandır töhməti ol cövrü aşkarələrin.

Qıl həzər bütxanədən, ey Məhəmməd ümməti,
Əmri min səcdə olur məbəddə dindarələrin!

Göz yaşım leysan olur qəlbimdə artdıqca qəmim,
Çağlayan sel tək durur fövqündə fəvvarələrin!

Ey təbib, şan-şan olub, yoxdur daha məndə ciyər,
Bax özün, təhlil elə zülmün ciyərparələrin!

Dərdi-eşq zindanına düşmüşlərə gəzmə əlac,
İş ki, Loğman bilmədi, kimdir bilən çarələrin?!

Böylə kim, möhnət yolu həm canda qanım qurudub,
İndi məndən gen durar niyyəti xunxarələrin.

Eşqdən əqlim mənim uçmazdı başdan bu qədər,
Bəlkə oynatmış onu əfsuni cindarələrin?!

Dərd, Əli, zor etsə də sən tutma səhrayə üzün,
Aqibət puçdur sonu çöllərdə avvarələrin.

2002

* * *

İstərəm mən bir nəfər dərdim o cananə desin,
Zülm edib salmış məni neyçün bu zindanə, desin.

Varsa gər bir təqsirim əfvimi ondan diləsin,
Bu qədər olmaz cəza bəndeyi-insanə, desin.

Qul xətasız olmamış, mümkünsə gəl, eylə kərəm,
Nola kim, sevmiş səni, işdir, düşüb qanə, desin.

Qoy kəsib həm qəlbimi versin ona töhvə kimi,
Məhv olub, ondan budur təsviri-nişanə, desin.

Vardı taqət, kim, dözürdüm dərdə mərdanə əzəl,
Yox dözüm, naləm düşüb həm indi hər yanə, desin.

Tərki-zindan tədbirin gər olmasa burda bilən,
Məsləhətçün qoy tapıb Yusifi-Kənanə desin.

Ey Əli, ötmür sözü eşq içrə huşyar olanın,
Bəlkə də aldın cavab, onda ki, məstanə desin.

* * *

Istərəm bir musiqi məclisdə xoş hal eləsin,
Dinləyən hər bir kəsi dilşadi-əhval eləsin.

Tar, kaman çalsın hava eşq üzrə bir pərdə tutub,
Feyziyab olsun könül, həm rəqsi ətfal eləsin.

Başlasın xanəndə qoy, Rastı bərdaşı ilə,
Mayədən qəddəm qılıb, həm zildə Üzzal eləsin.

Ləhcədə Yaqub kimi, sanbalda Seyyid oluban
Ol, səsin sehri ilə ilə hər könlü işğal eləsin!

Kim ki, tərcüm eyləməz naleyi-tarın dilini
Qəlbə verməz ləzzəti, istər sözün bal eləsin.

Musiqi aşkar edir kimdir çəkən qəm yükünü,
Dərdi gözdən nəm verən giryanə dəsmal eləsin.

Varlığımdır, ey Əli, qəlbim ölər ölsə muğam,
Yaz ki, dövlət də ona təsdiqi-rəsmal eləsin.

* * *

Varmı, yarəb, bəndə kim, dünyada heç qəm görməsin?!
Varmıdır tək bir nəfər, bəxtində ol, kəm görməsin?!

Dərdi-hicran çəkməyə həmdərdi var hər bir kəsin,
Bəxti bəd insan odur, yanında həmdəm görməsin!

Varmı aşiq eşq ilə hicran əkib qəm dərməsin?!
Binəsib bağbandı ol, bağdan nübar həm görməsin!

Hansı Leyla Leylidir, saf eşq ilə can verməsin,
Eşqdən məhv olduğun həm külli-aləm görməsin?!

Boşboğaz biganəyə aşiq desən kəsməz səsin,
Öylə qalsın ol gərək, zildən düşüb bəm görməsin!

Qalmamış bir tor daha əğyar mənimçün hörməsin,
Bunca dərd tapsın onu, dərdincə məlhəm görməsin!

Eşqmin hər cövrünün mən çəkmişəm qəm cərməsin,
Ya Əli, eşqin gözü, kaş nola kim, nəm görməsin!..

* * *

Nazını gizlət, gözəl, sözbaz olanlar bilməsin,
Ehtiyat et kim, bizə həm külli-aləm gülməsin.

Surətin əks etdirir ol nəqşi-xaliq qüdrətin,
San, misilsiz xalıdır, vurmuş mələklər ilməsin!

Məsləki-ilqarıma sadiq müsəlman əhliyəm,
Al nəzər-diqqətinə sən bu şəhadət kəlməsin!

Yol tapıb, axır ki mən qurbanlığa saldım adım,
Nola, yarəb, tale ismim ol kitabdan silməsin!

Qəlbimin hər bir teli dərdimlə tarım dartılıb,
Bunda gör, ey bixəbər, fəryadımın nazilməsin!

Hicranın hər zərbəsi köksümdə ox tək sancılıb,
Böylə bəs mümkünmüdür can gündə yüz yol ölməsin?!

Hər nə çəkdin, ey Əli, eşq üzrə məqbul saymışam,
Sən çalış innən belə dərd üstə dərdin gəlməsin.

* * *

Ey gəzən səhraları, isbat olub qafilliyin,
Almısan Məcnun adı, göstər, hanı aqilliyin?

Can alan nazəndələr qanun sayır can almağı,
Can qoyarmı səndə heç ol qanuna şamilliyin?

Bəhri-eşqin dalğasın çox saxlama sinəndə sən,
Məhv edir qəlbin için tufanlara sahilliyin.

Həm sınaq meydanıdır ol bəzmi-eşq insanlara,
Çün, müdam aşkar edir aşiqlərin fazilliyin.

Dərdi - eşq göydən gəlir, sirullaha kimdir çatan?
Hər qədər cəhd eyləsən təsdiq olur cahilliyin!

Tanrı vermiş əql ilə, ey Tanrının sirrin açan,
Tut qiyas, gör həddini, qadirmidir kamilliyin?

Ya Əli, bəxtim kəsib vicdanı bol-bol verdilər,
Çox əzabın çəkirəm mən indi bu adilliyin!

* * *

Məhəl qoymur gözəllər, kim daha Məcnun olur olsun,
İçib mey, böylə ol, meyxanədə məskun olur olsun.

Şərab kühlin qatıb eşqə peşəmdir nuş edim hər gün,
Əlif qəddim əyilsin, bel bükülsün nun olur olsun.

Təbəssüm eyləyir dilbər dözülməz ta'bi-halımdan,
Yoxumdur özgə töhvəm, qoy belə məmnun olur olsun!

Bilir aşiq cilovlanmaz, hüdud yoxdur məhəbbətdə,
Ürək meylin çevirməz hansı bir qanun olur olsun.

Rəqib böhtanını aşkar görüb heyrət elədim mən,
Bunu etməz sanırdım, ol, necə məl'un olur olsun!

Dedim məftununam, ey dil, xəbərin varmıdır bundan?
Dedi: var öz məramım, kim kimə məftun olur olsun.

Tərənnüm eyləməkdən can odum gen dur, Əli, artıq
Bəhər yoxdur sözündən hər necə məzmun olur olsun.

* * *

Get dolan səhraları, ey əqli zay olmuş cünun,
Olmasa xeyrin əgər, əzrarı da olmaz bunun.

Ömrümü sərf eylədim mən bir məhəbbət cəhlinə,
İndi nə əqlim qalıb, ya nə də ağzımda sünun.

Zərrəyə döndükcə can dərdim olur aləmqiyas,
Bəndi yox, nöqtəyəm, altım quyu, manəndi nun!

Etmə bihudə tələb, ey can alan, boş cismdən,
Canda canım yoxdu/sa, bəs neyliyim mən bağrı xun?

Tərki-eşqin, ey Əli, feyzində israr eylədin,
Get-gedə məhvəm əgər, bilgin bumu, ey pürfünun?!

* * *

Mə'bədi-eşq daxili mə'budu bilməkdə nə var!
Can müdam səcdədəsə, məscidə gəlməkdə nə var?!

Tərki-aləm aşiqə əhli-cəhənnəm deyilir,
Can verib qurbanlığa bəs onda ölməkdə nə var?!

Sadədir, ey baş yoran, təhlildə eşqin hesabı,
Bir vüsal niyyətini min dərdə bölməkdə nə var!

Çox sənəm hüsniyyəti zahirdə xalça kimidir,
Naşılar hardan bilər daxili ilməkdə nə var?!

Durma, yat cənnətsükun, ey Leyli qurbanı Cünun,
Hal-qəza əvvəlkidir, təzdən dirilməkdə nə var?!

Ey Əli, gülmə mənə, yazdıqca dərdim çoxalır,
Bəndeyi-biçarəyə təhqirlə gülməkdə nə var?!

* * *

Canımı ol xaliqin min dərdə salmaq cəhdi var,
Bir dəfə bir can verib, yüz də'fə almaq cəhdi var!

Qalmamış bir qəm daha üstümdə təcrüb etməsin,
Hər yeni qəm təsirin sinəmdə bulmaq cəhdi var!

Qurduğum beytül-həzən səhmandı mehmanlar üçün,
Ol səbəb çox qəmlərin qəlbimdə qalmaq cəhdi var!

Eşq üçün canın verən bir binəsib qurbanlığam,
Məndə eşq artdıqca çün, candan azalmaq cəhdi var.

Qovma sən könlüm quşun təhqir ilə, ey nazənin,
Yüzdə bir fürsət düşüb, diqqətdə olmaq cəhdi var.

Ağlamaq nöqsanını aşiq necə ləğv eyləsin?
Gözlərin hər dərd üçün giryanla dolmaq cəhdi var.

Sinəni islat, Əli, yandıqca artar tüstüsü,
Tüstü göz ağrıtsa da, yerdən ucalmaq cəhdi var!

* * *

Yenə könlümdə bir eşqin cünun sevdası var!
Yenə qəlbim telin titrətdi bir mahrux nigar!

Yenə amadəyəm faş etməyə rüsvalığım,
Yenə əvvəlki tək məyus düşüb, olsam da xar!

Yenə tutdum təriq, oldum məhəbbət zəvvarı,
Yenə diz qatlamam, töksün yağış, yağsın da qar!

Yenə yapmaqdayam qəlbimdə bir büllur saray,
Yenə sellər aparıb qalsa da gər tarimar.

Yenə yüksəkdədir göylərdə fəryadım mənim,
Yenə başdan ağıl çıldırsa da ol ahu-zar.

Yenə bir yönlə sən başın ki, girlərdin, Əli,
Yenə dünyan sənin bir odlu cəhənnəm olar!

* * *

Çal muğam, ey tarizən, simlərdə əfqan səsi var!
Tut Segahın pərdəsin, aşiqi-nalan səsi var!

Qoy dəramət başlasın mayeyi-şiraz əzəlin,
Onda bir can yandıran ahəstə hicran səsi var.

Şuridən Şahnaz ilə Simayi-Şəmsin mənə ver,
Eşqimi car etməyə dəstində elan səsi var.

Gör Çahargah qəsdini, zildən müxalif oxunur,
Dinləyən agahdı kim, cəhdində üsyan səsi var.

Dərdimi Bidad ilə söylər Humayun avazı,
Pərdeyi-Bidadda çün, bir inləyən can səsi var!

Naleyi-Zabul ilə qan tökür gözdən Qarabağ,
Şuşadan bir ah gəlir – Cabbar, Seyid, Xan səsi var!

Dildə el nəğmən, Əli, sən tut muğamat yolunu,
Burda odlar yurdunun Azəribaycan səsi var!

* * *

O dilbərin əməlindən çatıb çox söz, xəbərim var,
Qəzəb, hiddət tutub canım, bəbir nisbət təhərim var!

Deyirlər kim, rəqiblərlə edir söhbət vəfasız yar,
Onunçün də ürək dözmür, böyük dərdim, kədərim var!

Dedim: ey dil, hanı insaf, neçin etdin məni qəmxar?
Bilirsən kim, içim yanmış, külə dönmüş ciyərim var.

Dedi: artıq azadlıqdır, ürək sərbəst, könül muxtar,
Bu meydanda bilinsin qoy, mənim az-çox dəyərim var.

Dedim: neyçün könül xanəm bu möhnətdən olur tarmar?
Dedi: əl çək bu söhbətdən, mənim özgə nəzərim var.

Gözüm yaşı olub leysan,- dedim,- bundan Xəzərim var.
Dedi: bəsdir zərər vurdun, o sahildə şəhərim var.

Dedim: anlat sözün, fikrin, mənə qəlbin elə aşkar,
Nə müddətdir günüm yoxdur, nə axşamım-səhərim var.

Dedi: bir çox sevən aşiq gəlir səcdə, olub zəvvar,
Dedim: onda bu kə'bəyə mənim də bir səfərim var!

Əli, canım üzə bilməz bu yollarda boran, ya qar,
Qəzəllərdən yükün tutmuş yorulmaz bir kəhərim var!

* * *

Bu gözəllər yurdunun Təbriz, Bakı, Dərbəndi var,
Hər yerin bir özgə cür canlar alan fərzəndi var!

Məhliqa nazəndələr ardıncadır çoxdan könül,
Lap əzəldən onlara eşq üzrə möhkəm bəndi var.

Böylə cananlar ara can saxlamaq müşgül imiş,
Bunların can almağa həm əldə min cür fəndi var!

Çəkdiyim möhnətləri ol yarə açmaq istədim,
Bir təbəssüm etdi kim, gördüm mənə rişxəndi var.

El mənə Məcnun desin, bundan birə şöhrət gələr,
Onda ki, dilbərimin Leylayə bir manəndi var!

Söz ilə ceyran ovu uyğun deyil səyyadlara,
Ov edən ya tor qurur, ya əldə bir kəməndi var!

Hər sənin tək dil tökən aşiq deyil, billah, Əli,
Doğrudur, söz qoşmağa şairliyin hərçəndi var!

* * *

Könül mülkündə, ey zahid, mənim öz taxtı-tacım var,
Təriqət dərsinə nə bir tələb, nə ehtiyacım var.

Məni qorxutma sən, kim, qabili-dərman deyil hicran,
Fəda nəqdiylə çün, hər müşkülə mütləq əlacım var!

Çəkir bir atəşə can cismimi könlüm yenə hər dəm,
Tərəddüd içrə, ey salik, buna qəlbən rəvacım var!

Bu dağlardan, bu çöllərdən ayaq çəkməm gecə-gündüz,
Mənim, səyyad, ovum tutsa neçə kəklik, turacım var!

Bəlayi-eşqə sərfin eyləməz nisbət mənə Məcnun,
Mənim həm əqli-idrak, üstəlik də can xəracım var!

Məni qısqanma kim, qəlbimdə göylər mehri var, ey dil,
Mələk qövmüylə yalnız şe'ri-sən'ət izdivacım var!

Əli, bir kimsəyə uyğun deyil bənzətmədə eşqim,
Vüsal bəzmində çün, bir özgə cür əhval-mizacım var.

* * *

Məni tərk etdi həmdəmlər,
Könül tənha çəkir qəmlər.

Ömür hər an gedir əldən,
Qayıtmazdır keçən dəmlər!

Gözəllərdən hanı ehsan?!
Daha yoxdur o hatəmlər!

Özün kimdir oda çarpan?!
Hədər yerdən yanır şəmlər!

Tutub fürsət edir cövlan
Yarımçıqlar, ağıl kəmlər.

Ürək dözmür, sitəmlərdən
Axıb qan-yaş üzüm nəmlər.

Əli, sən tap münasib yer,
Bizi dövran yenə cəmlər!

* * *

Aşiqi-sadiq olan kəs indi kimdir, gördülər.
Çox "yəkun"un əvvəli lami-mimdir gördülər![1]

Xainin gizlin işin faş etməyə nə ehtiyac?-
Kim əməldən doğru-düz, əhli-salimdir, gördülər.

Əğyarın fitvasına heyran idi bir çoxları,
Yerlə-yeksan eylədi- Allah qənimdir, gördülər!

Hər zaman qəlbimdə kim, bir titrəyiş mövcud idi,
Yardılar könlüm için, qəm köklü simdir gördülər!

Dərdlilər dərman üçün çox gəzdilər eldən təbib,
Dərdi-eşqə təkcə bir canan həkimdir, gördülər.

Ya Əli, son qismətim niyyət tutub açdım kitab,
Sonda Lam, başdan Əlif, ortada Cimdir gördülər![2]

[1] «Yəkun» - ərəbcə «olur» mənasındadır. Onun əvvəlində «lam-mim» hərf birləşməsi olduqda isə «ləmyəkun» - «olmur» mənası verir.
[2] Ərəbcə Əlif, Cim, Lam – ardıcıllığı «əcəl» deməkdir.

* * *

Kimsəsiz eşq əhlinə min cür bəla qəmdən gələr,
Durmasa sahib ona gər məclisi-meyxanələr.

Dərdi-eşq zillətinin hər söyləyən çəkməz yükün,
Getdi bir-bir dünyadan tab eyləyən mərdanələr.

Bülbülün cəh-cəhləri tapmazdı şöhrət bu qədər,
Bağ içi gər olmasa ol qönçeyi - xəndanələr.

Vəsl üçün cəhd eyləyən dursun gərək qəmdən kənar,
Diqqətin cəlb etməsin pəjmürdeyi - qəmxanələr.

Həsrətin qandalını sındırmağa üsyan gərək,
Tərpənin, baş qaldırın, ey məhbusi - zindanələr !

Mən əgər Fərhad olam, Qafqazda dağ qoymaz idim,
Arxadan əmr eyləsə Şirin təkin xaqanələr !

Niyyəti can almadır əvvəl, Əli, məhbubların,
Sonda bəs nə istəyər ol bəndeyi-insanələr ?!

* * *

Fələk sağ istəsə can cismimi, dərdim bitər eylər,
Dəvayi-dərdi-qəm ehsanını yoxdan yetər eylər.

Qurutmuş mənbəyi-imkanımı kor taleyim çoxdan,
Dəniz versən, onu bəxtim quru çöldən betər eylər!

Müdam çeşmim tökən qan-yaş nahaq yerdən süzüb getməz,
Yuyub giryanla ol, həm köhnə dərdim tazə-tər eylər!

Ədalət çevrəsin tən ortadan xain bölə bilməz,
Sınanmışdır, tamah qoymaz, cızıb yandan vətər eylər.

Bəlayi-hicri-eşqin də'finə göylər bulub imkan,
Nə müşgül dərd ola bundan, qapıb sinəm sipər eylər!

Ümid yoxdur, Əli, bir müşgülü səhman edə bəxtin,
Ona sən göz-qulaq ol kim, daha artıq xətər eylər!

* * *

Gördüsə bülbül gülün, ol fəxr ilə şurə gələr,
Dəf edib hər zülməti həm didəsi nurə gələr.

Əhvalım naşad edən qəlbimdə həsrətdi, təbib,
Göstərə dilbər üzün, bir anda məsrurə gələr.

Bir sənəm hüsniyyəti səcdəyə könlüm çağırır,
Guya ol haqdan mələk, bu Musədir, Turə gələr.

Yüz desinlər qeyrisin, fikrimdə Leylamdı mənim,
Hansı məcnun beyninə bir özgə məfkurə gələr?

Nola tanrım cəm edə sevdamda diqqət-nəzərin,
Eşqmin təsdiqinə min ayəti-surə gələr!

Onda kim, gərdiş özü aşiqə vəslin yetirər,
Nə cünunluq Qeys üçün, nə əcəl Mənsurə gələr.

Ey Əli, müşkül işin səbr iylə axtar yolunu,
Təhlili-tədqiq ilə axırda düsturə gələr.

* * *

Kim dözər yar cövrünə aşiqi-biçarə qədər,
Yüz cəhənnəm görsə ol cənnəti-dildarə qədər?!

Axirət xofun mənə hər ləhzə anlatma əbəs,
Yandımaz sağər odu həsrəti-mahparə qədər!

Məsləkin eşq almışın təfsirdə məxsus yeri var,
Al nəzər Sənanı sən həm meyli-zünnarə qədər!

Əhdini pozmaz ürək sinəmdə doğransa belə,
Gör neçə oddan keçib bu əhdi-ilqarə qədər.

Cəm edib məcnunları eşq üzrə təlim edirəm,
Yüksəlibdir mənsəbim çöllərdə sərdarə qədər!

Ah ilə göydən nicat gözləmə qəsdində, Əli,
Çox da kim, nalən çatıb Əkbəri-qəffarə qədər.

2003

* * *

Könül qəmzadələr əhlin ki, hərdən cəm tələb eylər,
Məni əfradi-məclis cümlə, sədr-ə'zəm tələb eylər.

Unutmaq kühl ilə dərdin deyildir bizlərə caiz,
Ki, mey içdikcə əhləl-qəm bədəstur qəm tələb eylər!

Sədaqət, əhdi-peyman ilk əzəldən şərt olub bizdə,
Bunu hər bir sevən kəs, həm bütün aləm tələb eylər.

Məhəbbət qəhrinə can sidqi-dil təslim edən aşiq,
Təbibdən nə əlac, nə qəlb üçün məlhəm tələb eylər!

Cəhənnəm yolçusu istər ola hər kəs ona yoldaş,
Odur aşiq töküb qan-yaş müdam həmdəm tələb eylər!

Nədir bir busə, ey zalım, çəkim min iztirab ondan?
Günahdır qıymamaq, gər aşiqi-dilqəm tələb eylər!

Təmənna etmə zahiddən, Əli, dərman, mücərrəbdir,
Ki, dərman etmədən ol, dil töküb dirhəm tələb eylər!

* * *

İnsana candan əziz dünyadə insan anadır,
Canıma candan kəsib canın verən can anadır!

Borcunu qaytarmağa imkanı olmaz balanın,
Çün, bütün ol cismi-can, ondan axan qan anadır!

Ömrünün hər bir anın qayğıyla övladə verib,
Eyləyən öz ömrünü bizlərə ehsan anadır!

Tanrının öz haqqıçün imanda min səcdəsi var,
Haqqına qoymaz tələb bir təkcə iman anadır!

Bir kədər, bir möhnəti qıymaz sənə zərrə qədər,
Ağlayan hər dərdinə ol dildə əfqan anadır!

Ey Əli, nəzmində sən vəsf eylə ol hikməti ki,
Gər cahan cənnət isə, əlbəttə, rizvan anadır!

* * *

Qan tökən göz sahibi, qan ki, daha qan azalır,
Canda qanın azdısa, candan gedir can, azalır.

Mərhəmət, insaf hanı, dərman ola dərdi-qəmə?
Günbəgün artdıqca dərd nisbətlə dərman azalır!

Bəndeyi-biçarələr vicdanə möhtac olunub,
Qoymayın, tədbir edin, getdikcə vicdan azalır!

Kim tapır dərd anlayan bir bəndə, hədsiz sevinir,
Çünki say artırsa da, əslində insan azalır!

Haqq-ədalət yanəsib bəxt iylə qismətə gəlir,
Yoxdu təqsim eyləyən, gərdişdə irfan azalır!

Çərxi-dövran zülmünün tarixdə üsyandı sonu,
Çün, oda yandıqca can təslimi-hirman azalır.

Nə qədər imkanı var yazsın Əli haq sözünü,
Haq demək müşgül olub, şairdə imkan azalır.

* * *

Dəxli nəymiş bizlərə, kim, çöldə ceyran yaxşıdır?
Nisyə bal-yağdan, könül, nəqdində ayran yaxşıdır!

Axirət dünyasının kimdir görən isbatını?
Ortabab əhval ilə sağlıqda dövran yaxşıdır!

Ali-zat insan gərək naməhrəmə göz tikməsin,
Hər sevən öz sevdiyi dildarə heyran yaxşıdır.

Vəqf olub ah çəkməyin hicranda azdır faydası,
Dəfi-hicran etməyə, çün, gəşti-seyran yaxşıdır.

Qəlbi boş insan ki var, xislətdə heyvan kimidir,
Min nəfər biganədən bir könlü viran yaxşıdır!

Çox kitablar axtarıb qəm tərkinin gəzdim yolun,
Müstəqim yol tapmağa gördüm ki, Qur'an yaxşıdır!

Qıl həzər, vəsl istəmə, yar qətlə fərman eyləyər,
Məhvə getməkdən, Əli, hər halda hicran yaxşıdır!

* * *

Ey fələk, dünyadə heç nazsız cavanlar varmıdır?
Dərdi-eşqin zülmünə mən tək yananlar varmıdır?

Bunca kim, ömr eyləyib zalım gözəllər görmüşəm,
Yer üzündə az da olsa mehribanlar varmıdır?

Çox sənəmlər bəhs edir hüsni-züleyxalar ilə
Olmadan fərqində kim, Yusif-Kənanlar varmıdır?

Misli-Şirin can alan şahzadə çoxdur dünyada,
Heç bilinmir indi kim, Xosrov-xubanlar varmıdır!

Dərdi-hicran gizləməkçün səhralar mövcud imiş,
Hər tərəf məskun olub, xəlvət məkanlar varmıdır?

Tarimardır qəlb evim ol dərdi-möhnətdən bu cür,
Bilmirəm, bundan betər məhzun viranlar varmıdır?

Binəsiblər neyləsin ki, dərd azalsın dünyadan?
Ərzi-hal bildirməyə hökmü-divanlar varmıdır?

Dedilər dərdin danış, yüngülləşər qəlbində qəm,
Çox aradım, tapmadım mən, dərd qananlar varmıdır?

Can dəyişmək istərəm mən bircə anlıq vəsl üçün,
Ey Əli, məndən zirək tacir olanlar varmıdır?!

* * *

Gerçəyim əldən gedib, ömrüm xəyal anındadır,
Taleyim, ey dil, sənin bir hökmü-fərmanındadır!

Bəzmi-qurban içrə sən sanma əliboş aşiqin,
Nəqdi can sərf eyləmək hər halda imkanındadır!

Məndəki eşqin odu Məcnunda da yoxdur, inan,
Fərqimiz ancaq onun çoxdankı ad-sanındadır!

Eşqimizdən bəllidir – atəşpərəst övladıyıq,
Bu hərarət nəslimin illərdi ki qanındadır.

Könlümün bağında sən gəl tutma nöqsan naləmi,
Bülbülün şöhrəti də gül üstə əfqanındadır!

Yazdığın dərmanların faydası olmaz, ey təbib,
Çün nicatım dərdi–eşqin dəfi – hicranındadır!

Eşqdən əl çəkməyə yüz dəfə söz verdin, Əli,
Çatsa da ömrün sonu, şakər yenə canındadır!

* * *

Kəsdiyin canım deyil, ey can alan, can özgədir!
Qıl nəzər seylabə sən, məndən axan qan özgədir!

Qanlı göz yaşım mənim çoxdan damarımdan axır,
Gör nə bimar aşiqəm, çeşmimdə giryan özgədir.

Canı əldən vermişəm bihudə bir sevdayə mən,
Canı yox cismaniyəm, barəmdə fərman özgədir.

El ilə gəlmiş bəla bayram qədər hörmətdədir,
Tut qiyas məhşər ilə, bu ruzi-hicran özgədir!

Hər nə müşgül olsa da kafərdə olmaz bu əda,
Naz ilə can almağa əhli-müsəlman özgədir!

Yox gümanım hasilə yüz həmd ilə qılsam namaz,
Aləmi-eşq içrə çün, sahibi-sübhan özgədir!

Bu bidərman dərdimi qoy nəzm ilə yazsın Əli,
Dərd yazan çox olsa da, nazim-qəzəlxan özgədir!

* * *

Deyirlər əhli-cənnət zöhd ilə zahid olan kəsdir,
Ki, ol məhşər günü divanidən azad, mürəxxəsdir.

Cəhənnəm qövmünə yaz ismimi, zahid, mənim artıq,
Vüsal zöhdüylə cənnətsükun olduq, daha bəsdir!

Məni cəlb eyləmə mehrabına, ey mürşidi-kamil,
Sənə beytülmüəzzəmin, mənə eşqim müqəddəsdir.

Verib biganəyə dil, dili-zarım qan edən dilbər,
Nədən fərq bilməsin canan, ki mən-aşiq, o, nakəsdir?

Nə tərsim eyləmiş gör, taleyim ol xaliqi-həndəs,
Cəfam, eşqim, yanar canım bərabəryan müsəlləsdir!

Budur haqqın zühuru aləmi-aşkarda, ey vaiz,
Sənin vəzin, mənim naləm elə ancaq quru səsdir.

Qəzəl tutmur, Əli, dərdim, bacarsan qıl bunu təxmis,
Bu qəm təsvirinə əndazədə uyğun-müxəmməsdir.

* * *

Istəyim həsrət olub, bəxtimlə bir məhbəsdədir!
Ərzi-halım sormayın, əflakədən vabəstədir!

Bir pərizad eşqidir zindanda məhvim eyləyən,
Zülmü sığmır aləmə, baxmın ki, boydan bəstədir.

Nə qanır insaf nədir, nə anlayır möhnətlərim,
Çün, özü qəm görməmiş bir tazə-tər növrəstədir.

Bilmirəm bunlar neçin boy çıxmamış cəllad olur?
Bəlkə təqsir dərs verən ol ta'limi-mədrəsdədir?!

Daxilim qan ağlayan bir qəmli ney tə'bindədir,
Ol səbəb naləm mənim səsdən həzin, ahəstədir.

Sinəmi sən yarmamış mümkünmü dərman eyləmək?
Ey təbib, ol dərd mənim könlüm ilə peyvəstədir!

Dedilər axtar, soruş, dərdin Əli bilmiş olar,
Öyrənib gördüm o da məndən betər bir xəstədir!

* * *

Könlümün hər naləsi bir şərqinin ahəngidir,
Böylə bir avazeyi-əfqanla ağrım səngidir.

Vəslə qurban niyyətim dilbərimə aşkardı kim,
Qəsdimin höccətinə yüz fəndlə məhvim ləngidir!

Ey vücudumdan mənim eşqimdə miqyas eyləyən,
Məndə candır ölçüdə, cismim onun pərsəngidir!

Hər gecə ağlar gözüm qan-yaşla örtür gün üzün,
Ol səbəb tezdən Günəş qan tək qızıl-pürrəngidir!

Aşiqi-sadiqləri eşq öldürür hicran ilə,
Xaini məhv eyləyən vicdanının xərçəngidir!

Bülbülün qəm naləsi ahımla uyğun kökdədir,
Mən kimi ol binəva bir həsrətin diltəngidir!

Leylivəşlər əhdini tə'rif edən söhbət gəzir,
Bu, Əli, aldanma sən, məcnunların cəfəngidir!

* * *

Kəsib sinəm o cərrah tək yaran kimdir?
Qapıb xəncər bu qəlbimdən vuran kimdir?

Nə bir insan, nə Əzrail bilir ünvan,
Kəsib bəndim, qabaq-qənşər duran kimdir?

Biyabanlar olub məskən mənə çoxdan,
Bu çöllərdən izim ol axtaran kimdir?

Alır, alsın, bu can yükdür mənə artıq,
Belim dözmür, çöküb diz yalvaran kimdir!

Ürək dərdli, könül dolmuş ləbaləb qəm,
Kəsən kəssin, səbəb ondan soran kimdir!

Bu dərya kim, Əli, qandır, demişdim mən,
Deyirdin bəs dərinliyə varan kimdir!

* * *

Kimdə gər üslubi-sevda əhli-zahir kimidir,
Təhlili-eşq üzrə də yəqin o, mahir kimidir.

Gözlərin şövqiylə ol can yandıran nazlı mələk,
Əfsunun sirrin bilən qarşında sahir kimidir.

Gözdə çatmır iqtidar çəksin gözəldən nəzərin,
Çün, gözəl, göz oxşayan lələ-cəvahir kimidir!

Bir pəri gördüm ki, mən, qəlbim tələtüm eylədi,
Bir kərə baxmaq ona yüz cür xəsayir kimidir!

Sadədil, ürkək baxış insanı heyrətdə qoyur,
Mən bilən, xal düşməyib, həm qəlbi tahir kimidir.

Əqlimin çaşqınlığı nitqimdə çarpır nəzərə,
Mənası hər kəlməmin, çün, eşqə dair kimidir.

Laməkan dərviş mənə bildirdi əhval Əlidən,
Oynayıb başdan yazıq, biçarə, şair kimidir!

* * *

Puç olan bəxtim ki var, çərxi-fələyin qəhridir!
Heç olan mülküm mənim nakam məhəbbət şəhridir!

Göllənən, göl-göl duran, heç sanma kim, göydən yağıb,
Sellənən, aləm bilir, giryani-çeşmim nəhridir!

Keçdiyim eşqin yolu həm təşnədir başdan-başa,
İçdiyim, bəxtim yazan ol dərdi-hicran zəhridir!

Atdığım tordan çıxan yalnız olur həsrət yüküm,
Batdığım, bundan yana, dibsiz məlamət bəhridir!

Nəqlimin məntiqi yox, çoxdan itib nitqim mənim,
Əqlimin çaşqınlığı, olsun ki, eşqin sehridir!

İntizar üzmüş canım, yoxdur daha taqət, dözüm,
İntihar etsəm, bu da müşkül işin bir təhridir!

Aldığın töhmət, Əli, fitnə, fəsad bəhrəsidir,
Olduğun dəhrin özü, çün, fitnəkarlar dəhridir.

* * *

Ağlını eşq almışın dünyada təqsiri nədir?
Şərbəti-eşqin görən təbdilə iksiri nədir?

Ol nigarın gözləri bərqi-səmadan itidir,
Gör ki, bir baxmaq ilə miqyasda təsiri nədir?!

Mən ki, yarəb, müslüməm, eşqimdə müşrik deyiləm,
Bəs cəhənnəm-sağərin qarşımda təsviri nədir?

Gər cünun azad olur, çəkmir daha qəm yükünü,
Səhrada ol məcnunun boynunda zənciri nədir?

Söylənir: alt-üst edib, qatmış bu dünyanı fələk,
Bu, yalan söhbətdisə, bəs əldə kəfkiri nədir?!

Ya Əli, sağ qaldığım eşqimdə təqsir yazılıb,
Ol amansız cəlladın bu halda tədbiri nədir?!

* * *

Haqqa gedən işıq ucu daim sözün düzündədir,
Nur deyilən o saf işıq mərd kişilər üzündədir.

Haqqı qoyub içində sən düşmə elə diyar-diyar,
Yoxla əzəl ürəyini, gör nə qədər özündədir.

Çox da işin gedir taraz, hər səfərin uğurludur,
Son durumun sənin yenə bəxt yazanın sözündədir!

Pul-paradır soxan gözə çox bəndənin adamlığın,
Öz hesabın qanan ürək min nəfərin yüzündədir.

Sərvətini tutub duran azdı yolun səxavətin,
Bir də görər cəhənnəmin can əridən közündədir.

Yer üzünə gəlib-gedən çoxdu, hamı bilir bunu,
Hər gedişin ləyaqəti yerdə qalan izindədir!

Çox bəndəyə kömək əlim dəydi Əli, bilən hanı?
Tanrı baxıb görür özü, hər əməlim gözündədir.

* * *

Cəmləsəm giryanımı dəryayi-ümman eliyir,
Qəhr olan canım yenə insafə güman eliyir.

Bəxt kəsad, ömrüm fəna, qismət əzəldən kəsilib,
Gör qənaət əmrini, xaliq nə fərman eliyir!

Şükr elə, könlüm quşu, əfqanə imkan verilib,
Lütfi-rəhmin bizlərə əlbəttə rəhman eliyir!

Canımı qurbanlığa qeyri-münasib dedi yar,
Həqdi bu, kim xəstəni niyyətlə qurban eliyir?

Yox lüzum Əzrailə cansızı candan eləsin,
Dəftərə ismim yazıb say üzrə səhman eliyir.

Ol səadət mülkünü gizlində xülyam dolaşıb,
Nə qəbahət bunda kim, yar böylə qan-qan eliyir?!

Ey Əli, var diqqəti üstümdə zalım fələyin,
Əl qoyam hankı işə əlüstü peşman eliyir.

* * *

Aşiqə aşiq demə, gər lütfə qail kimidir,
Lütfi-rəhmə meyl edən nisbətdə sail kimidir!

Əhrimənlər mülküdür, girmə gözəllər bağına,
Lütf edən hər cananı sanma fəzail kimidir.

Rindü-şeydasan əgər, səhranı tərk eylə, cünun,
Vəsldən üz döndərən, çün, əqli zail kimidir!

Bədnəzərlər xoflanır gördükdə canım nə çəkir,
Qəm yükü boynumda bir tilsim-həmayil kimidir!

Məclisi-meyxanəyə zahiddə ikrah duyulur,
Çünki, ol, bu bəzmidə fərsizdi, kahil kimidir!

Canı hicran üzsə də ömrüm cəfadan uzanır,
Qıl nəzər, ey bihesab, günlər dönüb il kimidir!

Cavidanlıq mülkünü tutmuşdu niyyətdə Əli,
Düşdü sönməz bir oda, məqsudə nail kimidir!

* * *

Qəlbi nalan mən kimi, cövr iylə ilhamə gəlir,
Onda kı, yardan ona dərd artıran namə gəlir!

Ey könül, az bilmə sən ilkin gələn qəm xəbərin,
Bu, hələ müjdəsidir, ardınca bərnamə gəlir!

Məclisi-meyxanədə qəmzadənin birdi yolu,
Cövrdən olduqca məst, ol, mey dolu camə gəlir!

Könlümə hakim olan hökmündə israrlı durur,
Qəsdi məhvimdir onun, hər gün bəyənnamə gəlir.

Can düşüb bir dərdə kim, əndazəsin yoxdu bilən,
Nə təbib dərman bulur, nə qeyri əncamə gəlir.

Nə Şirin, nə Leyli var, nə yar üçün əhli-vəfa,
Çərxi-dövran baş alıb bir özgə əyyamə gəlir.

Bir xəyal karvanıyam, səhradə azmış yolunu,
Ha düzəlsəm Kəbəyə, sarvan dönüb Şamə gəlir!

Tərki-din Sənan kimi sən qeyri yol getmə, Əli,
Müstəqim yol axtaran hər halda islamə gəlir.

* * *

Binadan taleyim yox, niyyətim hasil ola bilmir,
Səmadan bağlanıb yol, qismətim nazil ola bilmir.

Cahan gərdişini ol fəzl ilə tənzim edən hakim,
Mənə gəldikdə, eyvah, bir kərə fazil ola bilmir!

Haçandır titrədir ol göydəki ulduzları naləm,
Nə hasil kim, nəticəm tufani-zilzil ola bilmir.

Çıxır tənha fəğanım təkcə öz beytül-həzənimdən,
Bütöv eldən sədayi-külli-mənazil ola bilmir.

Deyirlər hər səvabın öz müqabil xeyri var, amma,
Nə bir mövqedəyəm, gör, ol mənə şamil ola bilmir.

Bəlayi-hicri-eşqin çarəsi elm əhlinə yaddır,
Üləma yüz oxusun, eşq üzrə kamil ola bilmir.

Xəbərsiz naşılar bəzmindəsən kim, ey Əli, səndən,
Fəda şüğlündə də fərzanə bir amil ola bilmir!

2002

* * *

Nədir atəş, könül, sən kül olandan sor!
Nədir leysan, gözü yaşla dolandan sor!

Zimistanı nə gəl axtar, nə canın yor,
Soyuq qəlbin sazağından solandan sor!

Deyirlər kim, gözü eşqin olubdur kor,
Verib nurun özü bimar qalandan sor!

Ölüm xoşdur, demə aşiq olub dilxor,
İnanmırsan, gedib canın alandan sor.

Nədəndir kim, bu yollarda qurulmuş tor,
Tapıb səyyad, tora ceyran salandan sor.

O səhradan nicat tapmaq düşübdür zor,
Gəzib gəldim, nə Məcnundan-filandan sor.

Əli, dersən, nədən fövrən lüzumdur gor,
Açıb sinəm, bunu xəncər çalandan sor!

* * *

Söylə, könül diyarının dadlı nübarı yoxmudur?
Böylə solubdu çöl-bayır, yazı, baharı yoxmudur?

Cümlə məkanı gəzmişəm əldə olan, qalan budur
Dərdi-bəladı qismətim, özgə şikarı yoxmudur?

İndi rəqib deyir mənə gəlmə yaxın, uzaqda dur,
Qanı halal olan kəsin başqa qərarı yoxmudur?

Partlamayır ürək dözür, bir belə qəm, kədər udur,
Könlüm evin yıxan yarın damı, divarı yoxmudur?

Nəbzimi tut, aman, təbib, dərd-azarım de çoxmudur?
Həsrəti-yar olub işi, qeyri qubarı yoxmudur?

Sinə deşən görən nədir, nizəmi, ya ki oxmudur?
Sinə nə sinədir, Əli, dözməyə karı yoxmudur?

* * *

Gözəllər çox, nədən bundan xəbər yoxdur?
Məhəbbət var, neçin hicran, kədər yoxdur?!

Nədən çıxmış ürəklərdən odu eşqin?
Adam gördüm məhəbbətdən əsər yoxdur!

Alov tutmur, yanan yoxdur bu sevdadan,
İtib-batmış kərəmlərdən xəbər yoxdur!

Şəhərlərdir cavanlar üz tutan məskən,
Haçandır kim o səhrayə səfər yoxdur!

Dayazlardan üzən bilməz suyun sirrin,
Bu dəryanın dibin axtar-nələr yoxdur?

Dəlib keçmiş divarlardan o müjgan ox,
Sinələrdən, könüllərdən sipər yoxdur!

Əli, canlar mələklər tək tutub dövrəm,
Nə məndən hay, nə də səndən təpər yoxdur!

2001

* * *

Hansı dərddir, ey təbib, gözdən tutub canə düşür?
Bir bəladır kim, nə bir nadan, nə biganə düşür!

Hansı bir məhbəsdi kim, yoxdur poladdan qıfılı,
Binəva hicran çəkən könlüylə zindanə düşür?!

İnficar-zərriyyə tək nəymiş o könlüm dağıdan?
İndi hər bir bayquşa qəlbimdə viranə düşür!

Aşiqin iqbalıdır ol yanəsib dövr eləyən,
Əvvəli qızğın həvəs, sonluqda peşmanə düşür!

Zahida, vəzin qədər eşqimdə düstur yazılıb,
Alimi-ürfan adı mən tək müsəlmanə düşür!

Göydəki əflakəni vəsf etməyə varmı lüzum?
Dünyanın hər ağrısı yerdəki qurbanə düşür.

Sorma kim, yardan, Əli, bir busə düşməzmi sənə,
Sən kimi yaş ötmüşə bizlərdə səddanə düşür!

* * *

Ölkəmin hər guşəsi nisbətdə cənnət görünür,
Beşcə gün düşsəm kənar könlümdə həsrət görünür!

Vermişəm qanımla su mən hər ota, hər çiçəyə,
Qırmızı, al lalələr ol qandı əlbət, görünür!

Qürbətin yollarını gövhərlə örtsən də yenə,
Atdığın hər addımın boynunda minnət görünür.

Gözü tox, sərvəti çox, süfrəsi boldur Vətənin,
Kim, odur, gendən baxan gözlərdə heyrət görünür.

Yurdumun şairləri tarixdə tutmuş yerini,
Onların hər kəlməsi dünyadə ibrət görünür.

Aç, oxu, sən xəlqimin qəlbində mərdanəliyin –
Haqqa hər cür ehtiram, nahaqqa nifrət görünür!

Saf məhəbbət, duz-çörək həm burda üstün tutulub,
Bu halallıq lap əzəldən bizdə adət görünür.

Ol azad bayrağıma baxdıqca xəndan oluram,
Çün azadlıq, ey Əli, tarixdə şöhrət görünür!

2001

* * *

Ey mənə dərd artıran, səndə ədalət hanı bəs?
Varsa insafın əgər, lütfi-kəramət hanı bəs?

Seyr elə könlüm evin, yurdu xərabət görünür,
Qurduğum ol səltənət, mülki-imarət hanı bəs?

Ehtibar etdim sənə qəlbimin dürdanəsini,
Sən əgər məhv etmədin, söylə, əmanət hanı bəs?

Keçdi ömrüm, ey fələk, daima məhşərdə mənim,
Haqqa-haq yomil-hesab, vəhli-şəhadət hanı bəs?

Yıxma gəl mə'bədimi, çox dedim tərsa qızına,
Söylədi: mə'bud mənəm, səndə ibadət hanı bəs?

Gündə yüz yol ölməyin cövrünə dözməkdi peşəm,
Bu cəfanın sonluğu, xətmi-nəhayət hanı bəs?

Qövmü-ətraf anlamır dərdimin əsbabı nədir,
Ya Əli, bir əhli-hal, əqli səlamət hanı bəs?!

* * *

Aşiqi-nalanda, ey müdrik, nədir əfqanə həvəs?
Eyləyib rüsva onu, hərgah salır dildən-dilə səs?

Tədbiri-əflakədəndir nalədən təxlisi-cahan,
Ol qədər dərd artırar, ta qalmasın aşiqdə nəfəs!

Lal olub çırpır özün bir quş kimi köksümdə ürək,
Çün, susar qəmzadə bülbül gər ona məskəndi qəfəs.

Yer özü dövr eliyir, gər başına şəmsin dolanır,
Başına dövrümdə bu, ibrət deyil, ey gül, nədi bəs?

Ehtiyacım vəslidir kim, əllərim tutmuş ətəyin,
Ya ətəkdən keç, gülüm, ya küfr edib sən bu əli kəs!

Tutma sən məqsəd, könül, biinsafı münsif edəsən,
Gör neçə peyğəmbəri əldən salıb bu cəhdi-əbəs.

Qoyma kim, batil ola can nəzrini eşqində, Əli,
Yarə qurban dəmidir, dur, sən də bu imkanə tələs!

* * *

Bilən yoxdur nədən dünyam kədər olmuş,
Kədər-qəmdən bütün ömrüm hədər olmuş.

Gözüm giryan, sevincim yox, qəmim bolmuş,
O yaşdır kim, axıb gözdən Xəzər olmuş!

Uğursuzluq hədəfimdir – gəlibdir tuş,
Ovum da ki, müdam bəxtim qədər olmuş!

Baxır gözlər, ağıl kəsmir, gedibdir huş,
Dönüb birdən halım məcnuntəhər olmuş.

Yazıq könlüm, yolun qəmdən keçən yolmuş,
Odur kim, həm belim dərdə yəhər olmuş!

Nə bir loğmam, nə bir şərbət olubdur nuş,
Təamlarım dönüb san kim zəhər olmuş.

Könül bağçam deyirlər kim, Əli, solmuş,
Solur solsun, haçan ondan bəhər olmuş?!

* * *

Sevən insanı çox sadə aldatmaq olurmuş,
Üsuli-cəzbi-idrakla, oynatmaq olurmuş!

Dəmadəm naz edən aşiqə gülçöhrələrin,
Demə qəsdi o bədbəxti ağlatmaq olurmuş!

Əlacın bilmişəm – sinədən od çıxsa da gər,
Yanan ol qəlbi giryanla islatmaq olurmuş!

Necə müşkil imiş ovlamaq ceyranları gör,
Düşürlər nə tora, nə qovub çatmaq olurmuş.

Tufanlar oynaşan bəhri-zillətdir məhəbbət,
Nəsibin qərq olub, çox zaman batmaq olurmuş.

Nə cür bolluq olub indi gör meydanı eşqin,
Ki, qiymətdən düşüb can, ucuz satmaq olurmuş!

Bəladır eşq, Əli, vermə fürsət sən ona kim,
Nə gündüz dincəlib, nə gecə yatmaq olurmuş!

* * *

Dözüb hər zillətə könlüm, bunu eşqə dəva bilmiş,
Çəkib möhnət sitəmkardan, onun cövrün səfa bilmiş.

Şikayət etmərəm, düşsəm əgər, nari-cəhənnəmdən,
Cəhənnəm atəşin, zahid, haçan aşiq cəfa bilmiş?!

Qiyamət içrəyəm, məhşər günə salmış məni dilbər,
Bunu etməz idi düşmən, ki öz yarım rəva bilmiş!

Axan gözdən bu giryanım olan-olmaz təsəllimdir,
Özü tanrım bu leysanı yanan qəlbə şəfa bilmiş.

Verib səhralara meylin nəvadan bixəbər könlüm,
Biyaban seyrini mən binəvadır, ol nəva bilmiş.

Təbiba, bəzmi-eşqin müşgülü həddən ziya çoxdur,
Neçə, gör, dərdi alimlər bu cəmdə ehtiva bilmiş?

Fəzilətdən əsər yoxdur, Əli, sorma nahaqdan sən,
Fəna mülkündə ol ünvanı hansı binəva bilmiş?

* * *

Könül mülkündə, ey gül, sən məni məğrur hesab et,
Sitəmlə qan töküb göz ağlamaz, mə'zur hesab et!

Yanıb içdən olarsam kül, bilən olmaz kənardan,
Baxıb üzdən, sifətdən sən elə məsrur hesab et!

Düşüb səhralara Məcnun, fərardır qəm əlindən,
Onu məhcur görürkən sən, məni məşkur hesab et!

Ölə bilməz bu saf eşqim özüm dardan asılsam,
Məni, ey dil, nə Fərhad, sən nə də Mənsur hesab et!

Həvəssiz içdiyim mey dərdi gizlətmək üçündür,
Olur hərdən belə dərman, bunu məcbur hesab et!

Yayılmış aləmə çox söz, Əli, eşq üzrə məndən,
Uca tut fəxr ilə ismim, daha məşhur hesab et!

* * *

Çəkdiyin möhnət yükün ol yarə bildirmək olurmu?
Dərd əzən könlün ilə cananı güldürmək olurmu?

Bilmirəm sirri nədir qəmzadələr meyxanədədir,
Söz salıb qəmdən yana bir şəxsi dindirmək olurmu?

Ey könül, eşqin odun seyr eyləmə çöldən-çölə sən,
Dərs alıb pərvanədən ol narə gör, girmək olurmu?

Çevrilib ah-naləyə eşqim, tutubdur göy üzünü,
Olmasa vəslin özü, boş sözlə endirmək olurmu?

Yüz dedim, ey can, sənə mən: dur uzaq meyxanədən ol,
Kühl ilə məstanəni hörmətə mindirmək olurmu?

Eşqdən çəkdiklərim derlər mənə təqsir yazılıb,
Can fəda etmək ilə təqsiri sildirmək olurmu?

Nəşeyi-eşqin əlində nəfs ilə çoxdan əsirəm,
Bol yeyib qəmdən, Əli, ol nəfsi öldürmək olurmu?

* * *

Tanrıdan yox istəyim bir vəsli-canandan savay,
Vaxta ki, əldə niyazım yox quru candan savay.

Bir zaman həmkar idim məcnunlara səhrada mən,
İndi yoxdur həmdəmim ah, nalə, əfqandan savay.

Qıl nəzər, ey əhli-zahir, çaki-sinəmdən mənə,
Daxilim gör nə çəkir laxta-laxta qandan savay?

Aşikar qəm çəkməyin illacı asanmış, təbib,
Buldu hər kəs çarəsin bu dərdi pünhandan savay.

Varlığım təsdiq edən bir qanlı çeşmimdir, Əli,
Qalmamış məndən əsər dideyi-giryandan savay.

* * *

«Könüldə min qəmim vardır ki, pünhan eyləmək olmaz»[3],
Fələkdən gizlədib, daxildə üsyan eyləmək olmaz.

Deyirlər kim, təbib bilsin, gərək dərdim açıqlansın,
Bilinməzsə əlacın guya imkan eyləmək olmaz.

Qiyasdır eşq özü insan üçün insanlığa əlbət,
Məhəbbət yoxsa gər, insanı insan eyləmək olmaz!

Həzər qıl nalədən, ey binəsib, bədnam olur eşqin,
Dağılmış yurdu ol əfqanla səhman eyləmək olmaz!

Buraxdım kəndirin çox qəmlərin, çəkmir daha qəlbim,
Virandı qəlb özü, çox dərdi mehman eyləmək olmaz.

Nə mürşiddi ki, rahib vəz edir, təsvir oxur eşqə?
Kənardan seyr ilə eşq üzrə fərman eyləmək olmaz.

Nəzər sal dəxli-iman, eylə təhlil eşq ilə, zahid,
Ki, təhlil olmasa təfsiri-Quran eyləmək olmaz.

Əli, canın alır canan, əvəz yoxdur müqabildə,
Bu cür, billah, verib söz, əhdi-peyman eyləmək olmaz!

2001

[3] Mətlə M.Füzulinindir

* * *

Sevən gəldi-gedər olmaz,
Cəfa yoldan edər olmaz.

Məhəbbətdir mənim dünyam,
Cahan eşqim qədər olmaz!

Çiçək açsın könüllər qoy,
Solan bağdan bəhər olmaz.

Müzəffərdir sevən aşiq,
Məhəbbətsiz zəfər olmaz!

Sevin, şadlan murad almış,
Vüsal dəmi kədər olmaz.

Cəfasın çək gözəl yarın,
Ömür bundan hədər olmaz.

* * *

Qəlbini peykan deşən aşiqsə gər, qəm eyləməz,
Ağlamaq tərkin qılar, ovqatını kəm eyləməz.

Hər təzahür bir zərurət görküdür, isbatı var,
Hər təsadüf qum eşən kəs abi-zəmzəm eyləməz!

Aşiqin nə çəkdiyin biganələr bilməz, könül,
Əhli-hal naəhlidən eşq üzrə həmdəm eyləməz.

Göyləri qan ağladır hər sübhədək naləm mənim,
Çün, fələk göz sıxmasa gül üstü şəbnəm eyləməz!

Söylənir kim, Tanrının hər dərdə min illacı var,
İş budur, dərd artırıb dərmanımı cəm eyləməz!

Ey Əli, axtarma sən, kimdir verən can busəyə,
Bu işi məndən savay bir özgə sərsəm eyləməz!

2002

* * *

Eşq ilə can qəhr edən «can, can» deyib can istəməz,
Bəhri-eşq təkin bulan gövhər üçün kan istəməz.

Aşiqi-nalanlara bihudə zəhmətdir əlac,
Dərdimənd neynir dəva, yəqindi, dərman istəməz.

Xaneyi-viranəmə bel bağlama, ey şadiman,
Şakəri qəmdir onun, bir özgə mehman istəməz.

Vəsldən dönmür ürək, yüz söyləsin, aldanmaram,
Çün, vüsal zöhdün tutan eşq içrə meydan istəməz.

Vaiza, vəz etmə sən xunxarələr xofun mənə,
Qanciyər halım görən məndən daha qan istəməz.

Versələr min səltənət dönməz Əli mehrabidən,
Sahibül-aləmi-eşq mülki – Süleyman istəməz.

* * *

Könlü sitəmlə dağlanan əhli-səfayə bənzəməz,
Özgə bəladı eşq özü, qeyri bəlayə bənzəməz!

Qəmdi səsi o bülbülün, çünki gülü düşüb kənar,
Binəsibin fəqan səsi şuri-nəvayə bənzəməz!

Vəslə yetib səfasını kimdi görən o bəxtəvər?
Burda bitən ömür yolu badi-fənayə bənzəməz!

Yoxdu ürək sədaqəti dildə özün öyənlərin,
Hər deyilən şirin kəlam əhdə vəfayə bənzəməz!

Qəlbi sınıq biçarələr çarəni meydə axtarır,
Kühli-şərab ötüb keçər, dərdə dəvayə bənzəməz.

Qəm yükünü çəkənlərə çoxdu əlac yazıb-pozan,
Hər özünü deyən təbib İbni Sinayə bənzəməz!

Cismimi tərk edibdi can, özgə məkan tutub, Əli,
Orda cahan nə torpağa, nə bu səmayə bənzəməz!

* * *

Dilim yox, car olub nalәm dilә gәlmәz!
Әlim boş, ah ilә ahum әlә gәlmәz!

Gözüm leysan tökür, göldür yenә dövrәm,
Sonam bilmәm uçub neyçün gölә gәlmәz!

Gülün qan çöhrü bülbül bağrına manәnd,
Odur, qan çәkmәsә bülbül gülә gәlmәz!

Deyirdin, yar, yaxın günlәr gәlәcәksәn,
Keçib aylar, gәlәn, vallah, belә gәlmәz!

Әkib әğyar yığar mәhsul, qarabәxtәm,
Zәmim olsun, tutub dәn sünbülә gәlmәz!

Neçin bilsin günüm ahdır gecә-gündüz,
Bu әhvalım әgәr canan bilә, gәlmәz!

Әli, canın bu sevdaya ola qurban,
Düşünnәm ki, zәrәr bundan elә gәlmәz!

* * *

Oğul, hәr hәrzә kәsdәn bil ki, hәmsöhbәt ola bilmәz!
Kamalsız әhli-kefdәn nisbәti-ibrәt ola bilmәz.

Fәda qılsan hәyatın, bilmәyәn nadan üçün heçdir,
Soyuq xislәtdә heç vaxt mәrdliyә heyrәt ola bilmәz!

Yalan, saxta әkiz gәlmiş bu dünyaya әzәl gündәn,
Sözü hәdyan adamda qüdsi-tәriqәt ola bilmәz!

İküzlüdәn uzaq dur, kim, xeyir gәlmәz o nakәsdәn,
Satar dostu hәdәr yerdәn, o, pürqeyrәt ola bilmәz!

Deyәr hәr mәtlәbin, söz-söhbәtin mәrdanәlәr üzdә,
Kişilәr söhbәtindә sonradan qeybәt ola bilmәz!

Yapış elmin әtәyindәn, oxu, öyrәn bu hikmәtdәn,
Dühadan kor olan kәs layiqi-hörmәt ola bilmәz.

Vәtәnpәrvәr kәnar qalmaz elin ağrı-acısından,
Kәnardan seyr ilә ol, xalqına qüvvәt ola bilmәz.

Yaxın dostun qınaq, tәnqid sözündәn incimә, dәrs al,
Qohum-qardaş arasında ziyan töhmәt ola bilmәz!

Әli, sәn ver gücün, nәzmindә qoy mә'na dәrin olsun,
Belә olmazsa çün, nәzmindә bir hikmәt ola bilmәz!

LÜĞƏT VƏ İZAHLAR

A

Ab – su

Abi-heyvan – dirilik suyu. Əsatirdə İsgəndər – Zülqərneynin guya dirilik suyu üçün zülmətə getdiyi söylənilir.

Abi-zəmzəm – Məkkə yaxınlığında quyu suyu. Rəvayətə görə, İbrahim peyğəmbərin yəhudi arvadı Saranın təkidilə anası ilə birlikdə gecə səhraya atılmış körpə İsmayıl susuzluqdan əziyyət çəkdikləri vaxt İbrahim bələkdən çıxıb iməkləmək istəmişdir. Bu zaman onun dizi ilə qumu eşdiyi yerdən içməli su çıxmışdır. Həmin su abi-zəmzəm adı ilə məşhurdur.

Amadə – hazır

Aləmtab – aləmi işıqlandıran, günəş

Aləmsuz – dünyanı yandıran

Amil – işçi

Afitab – günəş, dünyanı qızdıran

Asüftə – dəlicəsinə sevən, həyəcanlı, vurğun

Afət – bəla, məc: canalan, dilbər

Ariz – üz, ərizəçi

B

Bad – külək

Behbud – sağalma, yaxşılaşma

Beyt – ev

Beytül-həzən – qəm evi

Beytül-sürur – şadlıq evi

Bədr – dolğun ay

Bəzr – toxum

Bədəstur – düstura görə, qaydaya əsasən

Bəhr – dəniz

Bərdaşt – əksər muğamların başlanğıc hissəsi, giriş

Bərq – ildırım, şimşək

Bəzm – məclis, yığıncaq

C

Cair – aid olma

Cəbəl – dağ

Cidal – müharibə, qovğa, vuruşma

Cim – ərəb əlifbasında «C» hərfinin adı

Cünun – dəli

Cümlə-cəma – bütün camaat, xalq

Ç

Çak – yırtıq, deşik

Çeşm – göz

Çöhrə – üz

D

Dəşt – çöl, biyaban, səhra

Dil – ürək

Dilxun – qanürək

Dilqəm – qəmürək

Dilşad – ürəyi şad, sevinən

Diltəng – təngə gəlmiş, cana doymuş

Dirhəm – pul vahidi

Dördölçülü sistem – dünyanın məkan və zaman vəhdəti baxımından dərkinə işarədir. Burada üç ölçü məkana (həcm) və bir ölçü zamana aiddir.

Ə

Əbru – qaş

Ədu – düşmən

Əfkar – fikirlər, düşüncələr

Əflak – fələklər

Əfrad – fərdlər, ayrı-ayrı adamlar

Əhli-zahir – zahirdəkinə inanan, gördüyünə inanan
Əhmar – qırmızı
Əkbər – ən böyük
Əkbəri-qətfar – ən böyük bağışlayan, allah
Əlif – ərəb əlifbasının birinci hərfi, «A», «Ə» və «İ» kimi işlədilir
Əndazə – ölçü
Ənsar – kömək edən. Məhəmməd (ə) peyğəmbərin hicrəti zamanı ona kömək edən mədinəlilərə «ənsarilər» deyirdilər.
Ərş – göy
Ərz – yer
Əsbab – səbəblər
Əsrar – sirlər
Ətfal – uşaqlar
Əzrar – zərərlər
Əşxas – şəxslər
Əltar – törə ulduzu
Əhli-nisvan – qadınlar, zənən əhli

F

Fəhm – anlama, düşünüb başa düşmə
Fərzanə – bacarıqlı, fərli
Fərd – tək, yeganə

G

Gərdun – fələk, dünyanı idarə edən
Giryan – yaş, göz yaşı
Gizb – yalan
Gəncinə – xəzinə

H

Hasib – hesabdar, mühasib
Həmd – vəsf, tərifləmə

Həqarət – alçaltma, təhqir
Hilal – təzə çıxmış ay
Hüsn – gözəllik
Hüma – şahlıq quşu
Hicrət – köç, köçüb getmə
Hüşyar – ayıq, ağlı başında
Hirman – zülmlər, əziyyətlər

X

Xəndan – gülən, sevinən
Xəsayir – zədələr, xəsarətlər
Xunxar – qaniçən

İ

İdbar – bədbəxtlik, taleyin dönüklüyü
İxtilat – qaynayıb-qarışma, yaxın əlaqə
İksir – qədim əl-kimyaçıların təsəvvüründə bir elementi başqasına çevirmək üçün lazım olan xəyali maddə
İqbal – bəxt, tale
İnfıcar – partlayış
İnfıcar-zərriyyə – atom partlayışı
İntiqal – ötürmə, əlaqə
İrfan (ürfan) – savadlı, oxumuş, ümumiyyətlə savad
İsrafil – Mələk, Qiyamət günü Sur çalacağı barədə dini ehkama işarədir.

K

Keyvan – Saturn planeti
Kəsarət – çatışmazlıq
Küffar – kafirlər, dinsizlər
Kühl (əlkühol) – spirt, spirtli içki
Kühkan – Dağçapan, Fərhadın ləqəbi

Q

Qayid – başçı, rəhbər
Qəffar – əfv edən, bağışlayan (allah)
Qəmxar – qəmçəkən
Qəndil – zeytun yağı ilə işlədilən çıraq
Qiyas – ölçü, nisbət
Qüdsi-təriqət – müqəddəs yol

L

Lam – ərəb əlifbasında «L» hərfinin adı
Ləməkan – məkansız, yeri olmayan
Ləb – dodaq
Ləbaləb – ağzına qədər dolu
Lisan – dil
Leyl – gecə

M

Mahparə – aypara (ayüzlü mənasında)
Manənd – oxşar, bənzəyən
Mehr – məhəbbət, istək
Mehrab – məsciddə dini rəhbərin namaz qılması üçün xüsusi ayrılmış yer
Məbud – səcdə edilən, Tanrı
Mədfən – dəfn yeri, qəbir
Məhcur – uzaqlaşmış, ayrı düşmüş, unudulmuş
Məhliqa – ayüzlü
Məlal – kədər, qüssə
Məlamət – təpə, danlaq
Mənsur – «Mənsur və Sitarə» dastanının qəhrəmanı. Məhəbbət yolunda dar ağacından asılmışdır.
Məsrur – şad, şad olmuş
Məstanə – kefli, sərxoş
Məsnəd – dayaq, istinad yeri

Məsna – zavod, emalatxana
Məşkur – Şükrə layiq
Mirac – ovqat
Mövlud – doğulmuş
Musəvi-iyyud – Musa peyğəmbərin ardınca gedənlər, yəhudilər
Müalic – əlac edən, həkim
Müsəlləs – üçbucaq
Mücərrəb – təcrübədən keçmiş, sınaqdan çıxmış
Müjgan – kipriklər
Mükəddər – kədərli, qəmli
Mümtaz – seçilən, fərqlənən
Mürşid – düz yol göstərən
Müstəqim – istiqamətli
Müşrik – Allaha şərik qoşan, təkallahlığa inanmayan
Münsif – insaflı, ədalətli

N

Naəhl – nadan, anlamaz
Nar – od
Nazim – nəzm yazan, şair
Nəbi – peyğəmbər, elçi
Nəhl – bal arısı
Nəhli-şiğğil – işçi arı
Nəmrud – Musa peyğəmbərə zülm edən fironun adı
Nəşviü-nüma – oyanış, inkişaf
Nun – ərəb əlifbasında «n» hərfinin adı

P

Peykan – oxun ucuna taxılan ucluq
Pəsənd – tərifləmə, bəyənmə
Peyvəstə – birlikdə olan, daimi
Pərsəng – qollu tərəzini nizamlamaq üçün istifadə olunan xırda daş və ya cism
Pürfən – çoxbilən, çox fənnlərdən xəbərdar

Pürkamal – çox ağıllı

R

Rahib – xristian din xadimi
Rəsmal – sərmayə, kapital
Rizvan – cənnətin gözətçisi, behişt

S

Sağər – Cənnətin odu. Quranın «Əl-müdəssiri» surəsində deyilir ki, sağər elə bir oddur ki, bir anda hər şeyi yandırıb külə çevirir.
Sağdan alma (və ya sağ əldən vermə) – Qurani-Kərimdə xoşbəxt bəndələrə bəxt dəftərinin sağ əldən verildiyini göstərən ayəyə işarədir.
Sakir – sərxoş, içkili
Sahir – sehrkar
Salik – məsləkə sahibi, dindar
Səbat – dəyişməzlik, sabit qalma
Səddanə – təsbeh
Sərəfraz – başqalarından seçilən, başı uca
Səfinə – gəmi
Səlibi – xaçpərəst
Sərdar – başçı, rəhbər
Səyyad – ovçu, tor quran
Sil-sil – zəncir
Sirət – yol
Sirət-müstəqim – istiqamətli, düz yol
Sirullah – Allah sirri
Siyah – qara
Sürur – şadlıq, şad
Suran – yanan

Ş

Şəhvar – şaha layiq
Şəms – günəş

T

Tahir – təmiz
Təbdil – dəyişmə, başqalaşma
Təfsir – izah etmə, açma
Təhtəl-hesab – hesabaltı, fərdi hesabla ümumi hesaba daxil olma
Təxlis – qurtuluş, xilas olma
Təriq – yol
Tərkima – tərəkəmə, köçəri
Tərsa – müsəlman olmayan, islamın tərsi
Təyr – quş, uçan
Tişə – külüng

Ü

Ülkər – dan ulduzu
Üzzal – Bəzi muğamlarda oxunan zil şöbə.

V

Vaqif – bilən, məlumatlı
Vəhl – an, məqam
Vəhli-şəhadət – şəhadət anı, qiyamət
Vabəstə – asılı
Vaiz – moizə oxuyan

Y

Yanəsib – lotoreya, yanəsib
Yom – gün
Yomil-hesab – hesab günü, məhşər

Z

Zilzil – zəlzələ, titrəyiş
Zöhrə – parlaq ulduz
Zöhd – çəkinmə, müəyyən şeylərdən özünü kənar tutmaq
Zünnar – xristianlarda sərt qurşaq
Zülf – saç

MÜNLƏRİCAT

Məhəbbət yükü ilə poeziya zirvəsinə..... 3
Müəllifdən bir neçə söz..... 9
1. *Qəsidə*..... 11
2. *Ey könül boş qalmısan, gəncinəlik getdi daha,*..... 15
3. *İstərəm ol yarı kim, əhdində çox düzgün ola,*..... 16
4. *İstərəm haqqım kəsən hər bir zaman qəmxar ola!*.. 17
5. *Boşdu və'zin, vaiza, etməz nüfuz vicdanıma,*..... 18
6. *Qandığımdan hər zaman borcum olub qanmazlara,*.. 19
7. *Hər sevən aşiq deyil eşqində təkmil olmasa,*..... 20
8. *Məndə bu, boş cismidir, can adlı sərvət yoxdu ta,*. 21
9. *Ləhni–Davuddu muğam, ustad olan gər oxuya!*..... 22
10. *Məqsədin məhvimdisə al canımı, ey afitab!*..... 23
11. *Qurulsun məclisi-üşşaqə xoş ovqat olan yerdə,*..... 24
12. *Gərdişi–əflakədən meydan ki əğyarə qalıb,*..... 25
13. *Jalə yox, göz yaşıdır yarpaqları etmiş büləndə,*..... 26
14. *Ey məni tərk eyləyən, var sinədə çox söz hələ!*..... 27
15. *Ey könül! Bəsdir, bu eşqin bir də nəfin gözləmə!*.... 28
16. *Dil tökmə sən, ey dili-suzan, çeşmi-xumarə,*..... 29
17. *Yurdumuzun gözəl yeri, varlı məkandı Qarabağ,*... 30
18. *Qıl kərəm, ey sevdiyim, aşiqi-mərdanəyə bax!*..... 31
19. *Gözlərim fürsət gəzir, bir ağlamaq imkanı yox,*... 32
20. *Vüsalından kənar, ey gül, bu dünyada gözüm yox!*. 33
21. *Ömrü sərf etdim qışa, fəsli-baharım gəlmədi,*..... 34
22. *Neyləmişdim, ey fələk, gülşəndə bağım qalmadı?*... 35
23. *Canana can-can dedim canımda ta can qalmadı!*... 36
24. *Nazı-qəmzən, ey sitəmkar, saldı odlara canı,*..... 37

25. *Ey fələk, bir bəxti kəm mən kimi, xilqətdə hanı?*.. 38
26. *Xilqətin hər surəti bir ehtiyac zəmnindədi,*..... 39
27. *Canana can təslimi can üçün şəfqətdi, nədi?*..... 40
28. *Cəhd edir könlüm yenə seyri-səmadan dolayı,*..... 41
29. *Daş tökər göydən fələk, biz əgər imkanə yetişsək,* 42
30. *Bülbülü şeydalarıq qalmış səadətdən uzaq,*..... 43
31. *Vəsl üçün, ey binəva, iş təkcə zəhmətdə deyil,*..... 44
32. *Məhv olan qarşında, yar, boş cismidir canım deyil!*... 45
33. *Fəna mülkün tutan könlüm, necə tarmar olursan ol,* 46
34. *Göndərən ol dilbəri zalım fələkdir, bilirəm,*..... 47
35. *Vüsal zikrin tutub gər hicrimi dandırdı muğam,*... 48
36. *Qan töküb qanım içən, mən qanıma qan istərəm!*.. 49
37. *Ey könül, qan ağladan ol sərvinazın neynirəm?*..... 50
38. *Nə dərdim var idi, mən zöhd ilə zahid ola bilsəm!* 51
39. *Həsrətin çəkmək olub könlümdə adət, bilmişəm,*.... 52
40. *Cəbhədir eşqim mənim, illərdi ki səngərdəyəm,*..... 53
41. *Öylə kim, dilbərimin mən xətti-xalın görmüşəm,*.. 54
42. *Gəl sevin, ey nazənin, məcnunların cərgindəyəm,*.. 55
43. *Dağlanan qəlbimlə, ey şux, atəşi-nar kimiyəm,*.... 56
44. *Ey mənə və'z eyləyən, vicdanımı göstər, baxım!*..... 57
45. *Şuri çal, ey tarizən, Şur ilə şadman olalım,*..... 58
46. *Könül, sondur daha, ol yar nəyə lazım?*..... 59
47. *Naəlac qaldım, açıb dərdim o dildarə dedim,*..... 60
48. *Eşq evim tikdim özüm, qurdum imarət eylədim!*..... 61
49. *Çox sevən aşiqlərin mən xoş həyatın görmədi,*..... 62
50. *Badə ver, saqi, bu gün əhvali-şadımdı mənim!*..... 63
51. *Ərşi lərzəyə salan naleyyi-ahımdır mənim,*..... 64
52. *Tərki-aləm sanmayın kim, intiharımdır mənim,*..... 65

53. *Vəslinə bənzər, gülüm, mən hansı bustandı deyim?..* 66
54. *Bir tərigət əhliyəm ki, eşqdir mə'bud bildiyim,.....* 67
55. *Çıxdı əldən, ey təbib, ol ümidvar olduğum,.....* 68
56. *Təbiba, sorma gəl pünhanımı əhlə-əyalımdan,....* 69
57. *Fələk bəxtim kənar yazmış bütün dünya cəlalından,..* 70
58. *Ey salıb könlüm oda, qəlbimdə qəm, hicran olan,..* 71
59. *Tanrı tək, ey vəsli-canan, bulunmaz ləməkansan,..* 72
60. *Edibsən könlümün zəbtin, bəladır işğalım səndən,..* 73
61. *Təmannam yox bu dünyanın fəlayindən,.....* 74
62. *Könül möhnət çəkir hər dəm məhəbbət var olan gündən!.....* 75
63. *Yorulmazdım sənə, Allah, ibadətdən,.....* 76
64. *Gər alarsan canımı, ey gül, tələs, imkan ikən!.....* 77
65. *Ey fələk, çox mətləbə heyrətli mizan vermisən!.....* 78
66. *Dad deyib hicran əlindən, bir belə dad eyləyən!....* 79
67. *Ey mənim əqlim alıb həm sonradan naz eyləyən,...* 80
68. *Kim deyir aşiq gərək gözdən töküb qan, ağlasın,...* 81
69. *Bəxti kəm insan odur, yanında canan olmasın! .....* 82
70. *Aşiqi-sadiq gərək eşqində bədbin olmasın,.....* 83
71. *Ey sitəmkar, sən mənim düşmənlərim şad eylədin,..* 84
72. *Bilmədin, eşqinlə çəkdim mən nə zillət, bilmədin,...* 85
73. *Çəkmərəm dərdin daha gül üzlü mahparələrin,....* 86
74. *İstərəm mən bir nəfər dərdim o cananə desin,.....* 87
75. *İstərəm bir musiqi məclisdə xoş hal eləsin,.....* 88
76. *Varmı, yarəb, bəndə kim, dünyada heç qəm görməsin?!.....* 89
77. *Nazını gizlət, gözəl, sözbaz olanlar bilməsin,.....* 90
78. *Ey gəzən səhraları, isbat olub qafilliyin,.....* 91

79. *Məhəl qoymur gözəllər, kim daha Məcnun olur olsun,.....* 92
80. *Get dolan səhraları, ey əqli zay olmuş cünun,.....* 93
81. *Mə'bədi-eşq daxili mə'budu bilməkdə nə var!.....* 94
82. *Canımı ol xaliqin min dərdə salmaq cəhdi var,.....* 95
83. *Yenə könlümdə bir eşqin cünun sevdası var!.....* 96
84. *Çal muğam, ey tarizən, simlərdə əfqan səsi var!....* 97
85. *O dilbərin əməlindən çatıb çox söz, xəbərim var,...* 98
86. *Bu gözəllər yurdunun Təbriz, Bakı, Dərbəndi var,..* 99
87. *Könül mülkündə, ey zahid, mənim öz taxtı-tacım var,.....* 100
88. *Məni tərk etdi həmdəmlər,.....* 101
89. *Aşiqi-sadiq olan kəs indi kimdir, gördülər.....* 102
90. *Kimsəsiz eşq əhlinə min cür bəla qəmdən gələr,.....* 103
91. *Fələk sağ istəsə can cismimi, dərdim bitər eylər,...* 104
92. *Gördüsə bülbül gülün, ol fəxr ilə şurə gələr,.....* 105
93. *Kim dözər yar cövrünə aşiqi-biçarə qədər,.....* 106
94. *Könül qəmzadələr əhlin ki, hərdən cəm tələb eylər,..* 107
95. *İnsana candan əziz dünyadə insan anadır,.....* 108
96. *Qan tökən göz sahibi, qan ki, daha qan azalır,.....* 109
97. *Dəxli nəymiş bizlərə, kim, çöldə ceyran yaxşıdır?..* 110
98. *Ey fələk, dünyadə heç nazsız cavanlar varmıdır?...* 111
99. *Gerçəyim əldən gedib, ömrüm xəyal anındadır,.....* 112
100. *Kəsdiyin canım deyil, ey can alan, can özgədir!....* 113
101. *Deyirlər əhli-cənnət zöhd ilə zahid olan kəsdir,....* 114
102. *İstəyim həsrət olub, bəxtimlə bir məhbəsdədir!.....* 115
103. *Könlümün hər naləsi bir şərqinin ahəngidir,.....* 116
104. *Kəsib sinəm o cərrah tək yaran kimdir? .....* 117

105. *Kimdə gər üslubi-sevda əhli-zahir kimidir,*..... 118
106. *Puç olan bəxtim ki var, çərxi-fələyin qəhridir!*..... 119
107. *Ağlını eşq almışın dünyada təqsiri nədir?*..... 120
108. *Haqqa gedən işıq ucu daim sözün düzündədir,*..... 121
109. *Camləsəm giryanımı dəryayi-ümman eliyir,*..... 122
110. *Aşiqə aşiq demə, gər lütfə qail kimidir,*..... 123
111. *Qəlbi nalan mən kimi, cövr iylə ilhamə gəlir,*..... 124
112. *Binadan taleyim yox, niyyətim hasil ola bilmir,*... 125
113. *Nədir atəş, könül, sən kül olandan sor!*..... 126
114. *Söylə, könül diyarının dadlı nübarı yoxmudur?*..... 127
115. *Gözəllər çox, nədən bundan xəbər yoxdur?*..... 128
116. *Hansı dərddir, ey təbib, gözdən tutub canə düşür?* 129
117. *Ölkəmin hər guşəsi nisbətdə cənnət görünür,*..... 130
118. *Ey mənə dərd artıran, səndə ədalət hanı bəs?* 131
119. *Aşiqi-nalanda, ey müdrik, nədir əfqanə həvəs?*..... 132
120. *Bilən yoxdur nədən dünyam kədər olmuş,*..... 133
121. *Sevən insanı çox sadə aldatmaq olurmuş,*..... 134
122. *Dözüb hər zillətə könlüm, bunu eşqə dəva bilmiş,*. 135
123. *Könül mülkündə, ey gül, sən məni məğrur hesab et,*... 136
124. *Çəkdiyin möhnət yükün ol yarə bildirmək olurmu?*. 137
125. *Tanrıdan yox istəyim bir vəsli-canandan savay,*... 138
126. *«Könüldə min qəmim vardır ki, pünhan eyləmək olmaz»*.. 139
127. *Sevən gəldi-gedər olmaz,*..... 140
128. *Qəlbini peykan deşən aşiqsə gər, qəm eyləməz,*..... 141
129. *Eşq ilə can qəhr edən «can, can» deyib can istəməz,*. 142
130. *Könlü sitəmlə dağlanan əhli-səfayə bənzəməz,*..... 143
131. *Dilim yox, car olub naləm dilə gəlməz!*..... 144
132. *Oğul, hər hərzə kəsdən bil ki, həmsöhbət ola bilməz!* 145
Lüğət və izahlar..... 146

Əli Aslanoğlu (Xankişiyev)

SEÇİLMİŞ QƏZƏLLƏR

Bakı – 2007, səh. 159

Texniki redaktor: **Yaşar Tağıyev**

Kompüter yığımı: **Elvin Xankişiyev**

Kağız formatı 60x84 1/16
Çap vərəqi: 10,0.
Sifariş № 77. Tiraj 500.

«Memar Nəşriyyat – Poliqrafiya» MMC
K.Balakişiyev 46 ª, tel.: (050) 352 33 58

2007
1118